Günəş Şərqdən doğur!

№ 37 (5318), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

26 fevral 2021-ci il (cümə)





## Daha 126 nəfər koronavirusa yoluxub

142 nəfər sağalıb, 3 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 126 yeni yoluxma faktı qeydə alınıb, 142 nəfər müalicə olunaraq sağalıb.

(Səh.9)

## Türkiyəli həkimlər 3 gündə 150-dən çox qazimizi müayinə ediblər



"YAŞAT" Fondunun dəstəyi ilə ölkəmizə gətirilən türkiyəli həkimlər 3 gün ərzində 150-dən çox qazimizi müayinə ediblər.

(Səh.6)

**Günün içindən...**



## "Bizim səbrimizi sınamasınlar"

Prezident İlham Əliyev: "Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır"

**"Müttəfiqləri Ermənistan ordusunu yenə də canlandırmaq, modernləşdirmək istəyirlər".**

Bunu Prezident İlham Əliyev Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində çıxışında deyib.

(səh.2)

## Vaxtı məlum olub



Əfv Məsələləri Komissiyasının növbəti iclası fevralın 27-də keçiriləcək

(səh.2)

# Qisasımızı aldıq




## Xocalı soyqırımından bu gün 29 il ötür

Düz 29 il öncə, fevralın 25-dən 26-na keçən gecə 20-ci əsrin ən böyük faciəsi, ən dəhşətli qətliamı yaşandı, soyqırım aktı baş verdi. İnsanlıqdan çıxmış, qandan bəslənən murdar qonşularımız qanlı havadarlarının köməyi ilə Azərbaycan türklərinə, xocalılara qarşı növbəti insanlıq dramı yaşatdılar.

(səh.7)

## Paşinyan tükənməyib...

Ermənistanla bağlı son qərarı xarici dairələr verəcək

(səh.5)



## İrəvandakı vəziyyət maraqlarımıza cavab verir

"Durum dəyişsə, Ermənistanda qalan digər ərazilərimizi azad etməliyik"

(səh.3)

## Rusiya prezidenti Paşinyanla danışıb

Putin bütün tərəfləri təmkinli olmağa çağırıb

(səh.2)

## "Qarabağda müharibə təhlükəsi hələ qalmaqdadır"

Ərəstun Oruclu: "Məhz bu səbəbdən də minalanmış sahələrin xəritələrini Azərbaycana verilməyə tələsmirlər"

(səh.6)

## Koronavirus 2022-ci ildə bitəcək, sonra isə......

ÜST rəsmisi ciddi açıqlama və proqnozlar verib

(səh.15)



## Əsgərlərini gözü kimi qoruyardı

Amma özü ilahi səadətə addım-addım yaxınlaşırdı

(səh.8)



## Hər qarış torpaq təhlükəlidir

Basdırılan minalara 340 milyon dollar xərclənib

(səh.8)

## Türk Şurasının Baş Katibi anım mesajı paylaşıb

“Azərbaycanın qələbəsi bütün türk dünyası üçün qürur və xoşbəxtlikdir”



**Türkdilli ölkələrin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş Katibi Bağdat Amrayev Xocalı Soyqırımının 29-cu ildönümü ilə əlaqədar anım mesajı paylaşıb.**

APA-nın yerli bürosunun xəbərinə görə, B.Amrayev 1992-ci il fevralın 26-da erməni silahlı qüvvələrinin bir gecədə Xocalıda yaşlı, uşaq, qadın daxil olmaqla günahsız insanların qətlə yetirdiyini xatırladıb: ”Qətl edilənlərlə yanaşı minlərlə insan yaralanaraq girov götürülüb və Xocalı şəhəri tamamilə dağıdılıb”.

Türk Şurasının Baş Katibi qeyd edib ki, bütün bu çətinliklərə baxmayaraq Azərbaycanın işğal altında olan torpaqları uğrunda qanuni mübarizəsi qələbə ilə başa çatdı: ”Dünyanın şahidi olduğu kimi, ədalət təmin edildi və qardaş Azərbaycan haqlı mübarizəsində qələbə qazandı. Bu qələbə bütün Türk Dünyası üçün qürur və xoşbəxtlik mənbəyi oldu”.

## Vaxtı məlum olub

Əfv Məsələləri Komissiyasının növbəti iclası fevralın 27-də keçiriləcək

**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclasının nə vaxt keçiriləcəyi məlum olub.**

Trend-in məlumatına görə, komissiyanın növbəti toplantısının fevralın 27-də keçirilməsi nəzərdə tutulur.

*Qeyd edək ki, indiyədək komissiyanın 3 iclası keçirilib və daxil olan müraciətlərin 350-dən çoxuna baxılıb.*

## Rusiya prezidenti Paşinyanla danışıb

Putin bütün tərəfləri təmkinli olmağa çağırıb



**Rusiya prezidenti Vladimir Putin ilə Ermənistan baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub.**

Trend-in məlumatına görə, telefon danışığı zamanı Ermənistandakı vəziyyət müzakirə edilib. V.Putin Ermənistanda qayda-qanun və əmin-amanlığın qorunması, vəziyyətin qanunlar çərçivəsində həllinin lehinə danışıb.

Rusiya dövlət başçısı, həmçinin bütün tərəfləri təmkinli olmağa çağırıb.

# “Bizim səbrimizi sınamasınlar”

## Prezident İlham Əliyev: “Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır”



### “Dünyada hansı müasir silah varsa, onlar da Azərbaycana gətiriləcək”

"Müttəfiqləri Ermənistan ordusunu yenə də canlandırmaq, modernləşdirmək istəyirlər". Bunu Prezident İlham Əliyev Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində çıxışında deyib. Dövlət başçısı bildirib ki, müharibə artıq başa çatıb. Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, "Dəmir yumruğ"u görəcək:

”Bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır. Biz heç vaxt imkan verməriк ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər. Bütün işlərə nəzarət edirik. Biz ordumuzu bundan sonra da gücləndirəcəyik. Yeni kontraktlar imzalanıb, ən müasir silahlar alınır, artıq onlar gətirilir. Dünyada hansı müasir silah varsa, onlar da artıq kontraktlanıb və Azərbaycana gətiriləcək. Müharibə, eyni zamanda, ordunun gələcək təkmilləşdirilməsi məsələlərini də üzə çıxarıb. Aparılacaq islahatlar daha da çevik, daha da döyüşkən və döyüş qabiliyyəti yüksək olan ordunun yaranmasına gətirib çıxaracaq”.

**“Həmin o “İsgəndər” raketlərini Ermənistan pulla alıb?”**

**Ölkə rəhbəri vurğulayıb ki, Ermənistan rəhbərliyi indi gileylənir ki, onlara verilən silahlar yararsız idi:** ”Kimisə günahlandırmaq hər şeydən asandır. Ancaq onu da deməlidirlər ki, bu silahlar onlara pulsuz verilib, müftə verilib. Özü də bir il yox, iki il yox, 30 il ərzində onları bizə qarşı silahlandırırdılar. Bilirik, müharibə dövründə Ermənistana nə qədər pulsuz silah verildi, müharibədən əvvəl nə qədər verildi. İyul toqquşmasından dərhal sonra, iyulun 17-dən başlayaraq müharibənin son gününə qədər Ermənistana gündə bir neçə təyyarə pulsuz silah gətirirdi. Həmin o ”İsgəndər” raketlərini Ermənistan pulla alıb? Pulsuz alıb. ”Elbrus”, ”Toçka-U”, ”Skad” raketlərini alıb. ”S-300”, hansı ki, biz yeddisini məhv etmişik, onlar da pulsuz verilib. Tanklar da, toplar da, digər hava hücumuna qarşı sistemlər də. Biz onların hamısını məhv etmişik. Ermənistan ordusu yoxdur, bitib, qurtarıb”.

**“Biz görürdük ki, münaqişənin sülh yolu ilə həlli yoxdur”**

**Prezident bildirib ki, münaqişənin sülh yolu ilə həlli yox idi:** ”Biz bütün bu illər ərzində müharibəyə hazırlaşırdıq. Azərbaycan müharibəyə hazırlaşdığını heç vaxt gizlətməyib. Çünki bizim torpaqlarımız işğal altında idi və biz görürdük ki, bu məsələnin sülh yolu ilə həlli mümkün deyil. Artıq son illər ərzində buna tam əmin idik. Ermənistan rəhbərliyinin davranışı, təxribat xarakterli çıxışları, addımları bizi və deyə bilərəm ki, beynəlxalq ictimaiyyəti əmin etmişdir ki, bu müharibənin sülh yolu ilə həlli mümkün deyil. Halbuki, bu məsələ ilə məşğul olan Minsk qrupuna həmsədrlik edən ölkələrin yüksəkvəzifəli rəsmi nümayəndələri daim təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz görürdük ki, münaqişənin sülh yolu ilə həlli yoxdur. Çünki əks-təqdirdə 30 il ərzində bu məsələ həll olunardı. Deməli, buna maraq yoxdur, yaxud da ki, belə nə hərb, nə sülh vəziyyəti kimisə qane edirdi. Kimisə qane edirdi ki, Azərbaycan xalqı 30 il ərzində belə vəziyyətdə yaşasın. Kimisə qane edirdi ki, bizim torpaqlarımız işğal altındadır və sanki Azərbaycana bu, müəyyən təzyiq mexanizmi kimi qəbul edilirdi. Bizi inandırmağa çalışırdılar ki, indi reallıq yaranıb, 30 il ərzində bu reallıq mövcuddur və Azərbaycan bu reallıqla barışmalıdır. Mən isə deyirdim ki, heç vaxt biz bu vəziyyətlə barışmayacağıq. Mən deyirdim, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın və imkan vermədik”.

**“Biz bu qələbəni təkcə Ermənistan üzərində qazanmamışıq”**

**Dövlət başçısı qeyd edib ki, biz bu qələbəni təkcə Ermənistan üzərində qazanmamışıq:** ”Hər zaman xarici nümayəndələr bizə deyirdilər ki, Ermənistan cəmiyyəti birlik nümayiş etdirir və Ermənistan cəmiyyətində milli birlik var. İndi biz görürük haradadır bu milli birlik. Bu məğlubiyyətdə biri-birlərini ittiham edirlər, biri-birlərini günahlandırırlar, kütləvi həbslər baş verir. Amma nədənsə, demokratiyadan dəm vuran bəzi qeyri-hökumət təşkilatları və bəzi hökumətlər buna göz yumurlar. Necə olur Ermənistanda müxalifət gündəlik formatda əzilir, dağıdılır, həbs edilir, öldürülür, amma buna heç kim reaksiya vermir. Bu, nəyi göstərir? Necə deyərlər, həmin 30 illik tarix bir daha əks etdirir ki, biz bu qələbəni təkcə Ermənistan üzərində qazanmamışıq. Bizə qarşı mütəşəkkil və güclü dairələr birləşib bizim torpağımızı əbədi işğal altında saxlamaq istəyirdilər. Ermənistan, sadəcə olaraq, bir alət idi, bir vasitə idi. Biz bunu dağıtdıq. Biz bu məkrli siyasəti alt-üst etdik və haqq-ədaləti bərpa etdik”.

**“Ermənistan heç vaxt bu cür acınacaqlı vəziyyətdə olmamışdı”**

**Prezident vurğulayıb ki, Ermənistan heç vaxt bu cür acınacaqlı vəziyyətdə olmamışdı:** ”Baxın, Ermənistan nə gündədir. Orada böhran yaşanır, gündə toqquşmalar, həbslər baş verir, demokratik əsaslar deməк olar ki, tamamilə pozulub. Həm 20 il Ermənistana başçılıq edən xunta rəhbərləri - Koçaryan-Sarkisyan xuntası, həm ondan sonra gələn hakimiyyət. Sonra gələn hakimiyyətin qarşısında seçim var idi - ya işğalçılıq siyasətini davam etdirəcək və özünü bədbəxt edəcək, ya da ki, öz xoşu ilə bizim torpağımızdan çıxacaq. Bu şansı biz verdik və mən hətta müharibə dövründə dəfələrlə demişdim ki, bizə tarix versinlər, onlar hansı tarixdə hansı bölgələrdən çıxırlar və biz müharibəni dayandırırıq. Belə də oldu, tarix verilən kimi müharibə dayandı. Ancaq onlar məcbur olub bu tarixi bizə verdilər, öz xoşuna yox”.

**“Bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilib”**

**Ölkə rəhbəri bəyan edib ki, bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilib:** ”Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyib. Ümumiyyətlə, Ermənistanda bizdə olan proqram mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir. Hər şey müqayisədə ölçülür. Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək”.

**“Bizim müharibəmiz azadlıq müharibəsi idi”**

**Prezident deyib ki, bizim müharibəmiz azadlıq müharibəsi idi:** ”İkinci Qarabağ müharibəsində 3 minə yaxın şəhidimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah sizə, onların yaxınlarına səbr versin. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmayıb. Biz Birinci Qarabağ müharibəsinin şəhidlərinin, İkinci Qarabağ müharibəsinin şəhidlərinin qanını aldıq. Düşməndən intiqamımızı aldıq, ərazi bütövlüyümüzü bərpa etdik və şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Birinci Qarabağ müharibəsində 12 mindən çox şəhidimiz olub və 4 minə yaxın hərbçimiz itkin düşüb, təqribən 16 min itkimiz olub və torpaqlarımız işğal altına düşüb. İkinci Qarabağ müharibəsində şəhidlərimizin sayı müharibənin miqyasına görə həddindən artıq azdır. Əlbəttə, hər bir şəhidimizin xatirəsi bizim üçün əzizdir. Hər bir insanın həyatı qiymətsizdir. Sabah Xocalı soyqırımının 29-cu ildönümüdür. Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir. Bu cinayəti Ermənistan dövləti törədib. Xocalı qurbanlarının da qanı İkinci Qarabağ müharibəsində alındı”.

**İsmayıl**

# İrəvandakı vəziyyət maraqlarımıza cavab verir

## “Durum dəyişsə, Ermənistanda qalan digər ərazilərimizi azad etməliyik”



Ermənistan silahlı qüvvələri ölkənin Baş naziri Nikol Paşinyanın istefasını tələb edib. Baş Qərargah rəisi Onik Qasparyan, bütün müavinləri, şöbə müdirləri və bütün böyük hərbi birləşmələrin komandirləri bəyanat imzalayıblar. Paşinyanın istefası tələbi 40-dan çox yüksək rütbəli hərbçi tərəfindən imzalanıb.

Bildirilir ki, onlar baş nazirin uzaqgörən olmayan və əsassız addımlarına, xüsusən də baş qərargah rəisinin birinci müavininin vəzifəsindən azad edilməsinə qəti surətdə etiraz edirlər.

Hərbçilər hesab edir ki, Tiran Xaçatryanın istefa qərarı Ermənistanın milli və dövlət maraqları nəzərə alınmadan, yalnız şəxsi ambisiyalara əsaslanaraq verilib: ”Belə çətin şərtlərdə belə bir qərar dövlətə qarşı yönələn və məsuliyyətsiz bir addımdır”.

Ermənistan Baş naziri Nikol Paşinyan ölkənin baş qərargahının bəyanatını hərbi çevriliş cəhdi adlandırıb.

Bu barədə o, ”Facebook” səhifəsində yazıb.

**İrəvandakı mövcud durumu ”Şərq”ə şərh edən politoloq Əhəd Məmmədli bildirib ki, Ermənistanda 1992-ci ildəki iyun qiyamının müasir forması baş verir:** ”Çox güman ki, hazırda Ermənistandakı proseslərdə Rusiyanın da ”əli” var. Çünki Ermənistan bu dəqiqə Rusiyanın tam nəzarətindədir. Paşinyanı məxməri inqilab yolu ilə devirə bilmədilər, indi isə hərbi çevrilişə keçiblər. Onun hərbi çevrilişlə devrilməsi baş tutsa, bu, Ermənistanda hakimiyyətə kimlərin gəlməsindən asılı olmayaraq, dərin böhranlı vəziyyət yaradacaq”.

**Politoloqun sözlərinə görə, Ermənistan Rusiyanın köməkliyi ilə ötən əsrin 90-cı illərində Azərbaycandakı böhrandan maksimum istifadə etdi. İndi isə ölkəmiz eyni davranışı sərgiləməlidir:** ”İrəvandakı vəziyyət nə qədər gərginləşərsə, bu, maraqlarımıza cavab verir. Amma Rusiyanın buradakı mövqeyi maraqlıdır. Hələlik Kreml rəsmi mövqeyini bildirməyib. Azərbaycan istənilən duruma hazır olmalıdır. Vəziyyət dəyişsə, Ermənistanda qalan digər ərazilərimizi azad etməliyik. Həmçinin qısa müddət ərzində hər gün əsəblərimizlə oynayan rus sülhməramlılarına dair duruma da əl qoymalıyıq”.

”Paşinyanın devriləcəyi halda onun yerinə gələn şəxs 10 noyabr üçtərəfli bəyanatın şərtlərini qəbul edəcəkmi” sualına gəlincə, Ə.Məmmədli söyləyib ki, Paşinyanın yerinə gələn adam sözügedən sənədin bəndləri ilə razılaşacaq: ”Çünki 10 noyabr bəyanatı Rusiyanın istəyi ilə imzalanıb. Paşinyan devriləcəyi halda çox güman ki, hakimiyyətə gələn şəxs Rusiyaya yaxın biri olacaq. Amma ola bilsin ki, Ermənistanda qərbyönümlü qüvvələr də hakimiyyətdə pay sahibi olsunlar, hətta hakimiyyətə gələ bilərlər. Belə olan halda onlar üçtərəfli bəyanatın şərtləri ilə razılaşmaya bilər.

Əslində bu durum da Azərbaycana sərf edir. Çünki məsələ yenidən qaldırılsa və gərginlik davam etsə, işimizi birdəfəlik həll edə bilərik”.

**Yeganə Bayramova**



## “Nə qədər insanın əfv olunub, olunmayacağını deyə bilmərik”

### Zahid Oruc: “Bu, həm məhbusların özlərinə, həm də onların ailə üzvlərinə mənfi təsir edə bilər”

**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib. İclasda əfvlə bağlı 150-dən çox müraciətə baxılıb.** Bununla da komissiyada baxılan müraciətlərin sayı 350-ni ötüb. Qeyd edək ki, indiyədək əfv komissiyasının iki iclasında 200-dən çox müraciətə baxılmışdı.

**Komissiyann üzvü, millət vəkili Zahid Oruc iclasın nəticələri barədə ”Şərq”ə danışdı:**

”Nə qədər insanın əfv ediləcəyi Prezidentin səlahiyyətlərinə daxildir. Eyni zamanda kimlərə ”yox” deyiləcəyini müzakirə etmək komissiyanın daxili etik nizamnaməsinin pozulması deməkdir.

Bu, həm məhbusların özlərinə, həm də onların ailə üzvlərinə mənfi təsir edə bilər. Sadəcə onu söyləyim ki, komissiya bütün müraciətlərə baxmağa çalışır. Müzakirələr davam edir. Əsas məsələ ”ikinci şans” qanununun olmasıdır. Statistik rəqəmlərin arxasında insanlar, talelər dayanır.

Bizdə on illərdir ki, əfv institutu var. Verilən qərarlar isə yalnız məhbusları və onların ailələrini deyil, bütöv cəmiyyəti sevindirir.

İndiyədək 66 dəfə əfv, 10 dəfə amnistiya qərarının qəbul edilməsi dövlətin humanist siyasətinin və mənəvi dəstəyinin təzahürüdür”.

**Kənan**

# “Qərbi Azərbaycan İnstitutu yaradılmalıdır”

Qarabağımızı 30 ilə yaxın müddətdə işğal altında saxlayan mənfur ermənilər utanmadan, həyasızcasına bizə məxsus tarixi-dini abidələrimizə, alban kilsələrinə iddia edir, abidələrimizin aqibətindən "narahat" olduqlarını deyirlər. Ermənilərin Qarabağdakı tarixi-dini abidələrimizin başına hansı oyunları açdıqları, bir qismini "erməniləşdirməyə" çalışdıqları, qalanları isə bünövrələrinə qədər sökdükləri hamımıza məlumdur.

Şübhəsiz, ermənilərin Qarabağda xalqımıza məxsus qədim məbədlərə iddiası absurddur. Amma Qərbi azərbaycanlıların öz doğma yurdlarındakı çoxsaylı tarixi və dini abidələrin, məscidlərin aqibəti haqqında məsələ qaldırmağa və həqiqətən narahat olmağa ciddi əsasları var. Qarabağda kilsə ”dərdinə” düşən ermənilər elə Qarabağın özündə və Qərbi Azərbaycanda qədim məbədlərimizi, tarixi tikililərimizi yerlə-yeksan ediblər. ”İbadət” məqsədi ilə alban kilsələrinə gəlmək istəyən ermənilər zəbt etdikləri torpaqlarımızda müsəlmanların ibadəti üçün salamat məscid qoyublarmı?

**Mövzu ilə bağlı suallarımızı cavablandıran millət vəkili, Azərbaycan Qaçqınlar Cəmiyyətinin və Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli deyib ki, ermənilərin Qarabağdakı tarixi-dini abidələrimizin, alban kilsələrinin aqibətindən ”narahat” olmaları siyasi riyakarlıqdan başqa bir şey deyil.** Deputatın sözlərinə görə, ermənilər çox yaxşı bilirlər ki, Cənubi Qafqazda onların cəmi iki yüzillik tarixi var. Əlbəttə, ona da tarix demək mümkündürsə: ”Bu iki yüzillik ”erməni tarixi” şərəfsizliklərlə doludur. Məsələn, Kəlbəcərdə cəmi son 27 ildə mövcud olmuş ermənilər yeddi əsr bundan əvvəl Arzu xatun tərəfindən tikdirilmiş Xudavəng monastırına necə iddia qaldıra bilər? Bu, hansı məntiqə sığır? Laçındakı V-VI əsrdə inşa edilmiş Ağoğlan məbədinin burada heç vaxt yaşamamış ermənilərə nə aidiyyəti var? Yaxud ”sovet ailəsində” dinc-yanaşı yaşadığımız dövrdə həmin məbədlərdə gedib ibadət eləmək ermənilərin yadına niyə düşmürdü? Bəlkə o vaxt ermənilər xaç suyuna çəkilməmişdilər, sonradan xristianlaşdılar? Dünya da bu ikiüzlülüyə birdəfəlik son qoymalıdır. Son 30 ildə Qarabağda minə yaxın yaşayış məntəqəsini, yüzlərlə məscidi, digər abidələrimizi yer üzündən silən ermənilər hansı haqla bir-iki kilsənin taleyi üçün ”narahatlıq” keçirirlər. Bu vəhşi qəbilə haçandan mədəniyyət keşikçisinə çevrilib? Onların bu riyakarlığına göz yuman ”UNESKO”nun, başqa beynəlxalq təşkilatların da gözü kordur”.





## Əziz Ələkbərli: “Bu institut Ermənistanla bağlı tarixi-strateji mərkəz funksiyasını yerinə yetirməlidir”

**Parlament üzvü Qərbi Azərbaycandakı abidələrimiz haqqında da fikirlərini söyləyib:** ”İki yüz il bundan əvvəl çar Rusiyası tərəfindən indiki İran və Türkiyə ərazilərindən İrəvan xanlığı ərazisinə köçürülüb gətirilən ermənilərə qədər buradakı bütün tikililər, o cümlədən maddi mədəniyyət abidələri kimə məxsus idi? Əlbəttə, minillərdən bəri burada yaşayan yerli xalqa - Azərbaycan türklərinə! Hanı indi o abidələr? Hamısı ya erməniləşdirilib, ya da yer üzündən silinib. Budur ermənilərin əsl sifəti! Ermənilər tarix boyu onları himayə edən xalqlara xəyanət ediblər. Qədimdə yunanlara xəyanət ediblər və oradan qovulublar indiki İran və Türkiyə ərazilərinə. Daha sonra İrana və Türkiyəyə xəyanət edərək Azərbaycan torpaqlarına gəliblər. Lakin gözlənildiyi kimi azərbaycanlılara da xəyanət yolunu tutublar. İndi də Rusiyaya xəyanət edirlər. Tarix sübut edir ki, ermənilər xəyanətkar toplumdur və düzəlmələri mümkün deyil”.

**Ə.Ələkbərli vurğulayıb ki artıq mizan-tərəzinin qurulduğu zamandır:** ”Ermənilər öz gəlişləri ilə bölgəyə gətirdikləri bütün fəlakətlərin cavabını verməlidirlər. Bu məsələdə bütün Azərbaycan xalqının və müzəffər Ali Baş Komandanın mövqeyi eynidir - düşmənə güzəşt yoxdur! Biz Qərbi Azərbaycandakı bütün tarixi dəyərlərimizə sahib çıxmalı və bu məsələlərə lazım olan bütün addımları atmalıyıq. Mənim ilk təklifim Qərbi Azərbaycan İnstitutunun yaradılmasıdır. Bu institut o torpaqlarla bağlı bütün məsələlərin həlli məsuliyyətini öz üzərinə götürməlidir. Bu institut indiki Ermənistanla bağlı həm tarixi və həm də strateji mərkəz funksiyasını yerinə yetirməlidir. Bu institut bütün erməni yalanlarını ifşa etməli, dünyaya çatdırmalıdır. Bu institutun adı gələndə erməni alimləri başlarını soxmaq üçün siçan deşiyi axtarmalıdırlar”.

**İsmayıl Qocayev**



# Xocalı soyqırımı yerli və xarici mediada - 1992-ci il

## Bəşər tarixinin ən qanlı qətliamına həsr olunmuş dəyərli kitablardan birini də "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı qələmə alıb

Erməni quldurları tərəfindən dinc əhaliyə qarşı törədilmiş Xocalı soyqırımının 29-cu ildönümü tamam oldu. Bu dəhşətli soyqırım haqqında çox danışılıb, xeyli yazılıb, sənədli və bədii filmlər lentə alınıb. Bəşər tarixinin ən qanlı qətliamına həsr olunmuş dəyərli kitablardan birini də "Şərq" qəzetinin baş redaktoru, tədqiqatçı-jurnalist, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı qələmə alıb.

Müəllifin 2005-ci ildə ərsəyə gətirdiyi "Türkün Xocalı soyqırımı" adlı tarixi araşdırmasında XX əsrdə Azərbaycan türklərinə və eləcə də bütün bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlər sırasında dayanan Xocalı soyqırımından ətraflı şəkildə, zəngin faktlarla və sənədlərlə bəhs edilib. Əsrdə erməni və keçmiş sovet hərbçilərinin 1992-ci ilin 26 fevral gecəsi Xocalıda dinc sakinlərə qarşı həyata keçirdikləri soyqırım aktının dəhşətləri əhatəli şəkildə öz əksini tapıb.

Publisistika janrında işlənmiş kitabda soyqırımın baş verdiyi dövrdə yerli mətbuat orqanlarında və o zamankı xarici media qurumlarında əks olunması da ətraflı işıqlandırılıb.

**Xarici ölkə jurnalistləri Xocalı soyqırımı haqqında**

**A.Aşırlı kitabında qeyd edib ki, soyqırımın ilk günlərində, martın 2-də Xocalının adını ilk dəfə eşidən, bu şəhərin dinc əhalisinin başına gətirilən faciələri qələmə alıb çəkiliş aparmaq istəyən xarici ölkə jurnalistləri hadisə yerinə yollanıblar.** Onları cəsur jurnalist, Xocalı fəlakətini ilk dəfə dünyaya yayımlayan Çingiz Mustafayev müşayiət edib: "Artıq Çingiz ikinci dəfəydi ki, Kətik meşəsində, Naxçıvanik yolunda üst-üstə qalaqlanan meyitləri, başının yarısı soyulmuş, gözləri çıxarılmış uşaqları çəkirdi. Xocalını ölü bir sükut bürümüş, qar üstə səpələnən insan meyitləri vahimə yaradırdı. Hər yerdən qan iyi gəlirdi. Vəhşiliyə, qəddarlığa görə daşnakları belə arxada qoyan erməni-rus hərbi birləşmələrinin törətdikləri faciə xarici ölkə jurnalistlərini dəhşətə gətirmiş, bəziləri əlləri ilə gözlərini tutaraq, onları gətirən vertolyota tərəf gəlmişdilər. Özünü itirmiş, göz yaşlarını saxlaya bilməyənlər də olurdu".

**"Hündürlüyə qalxaraq havada gördüklərimizi kameraya çəkirdik"**

**Qanlı olayları gözləriylə görüb lentə alan fransalı Jan-İv-Yunet yazır:** "Biz Xocalı faciəsinin şahidi olmuşuq. Yüzlərlə ölənlərin meyitlərini gördük. Onların arasında qadınlar, qocalar, uşaqlar və Xocalının müdafiəsində duran adamlar var idi. Bizim ixtiyarımıza vertolyot verildi. Hündürlüyə qalxaraq havada gördüklərimizi kameraya çəkirdik, Xocalı və onun ətrafını lentə alırdıq. Bu zaman erməni hərbi birləşmələri bizim vertolyotu atəşə tutdular və biz məcburiyyət qarşısında qalaraq, çəkilişi yarımçıq qoyub geri qayıtdıq. Mən müharibə haqqında çox eşitmişəm, alman faşistlərinin qəddarlığını oxumuşam, ancaq ermənilər dinc əhalini və 5-6 yaşlı uşaqları öldürməklə vəhşilikdə belə onları arxada qoymuşdular. Biz xəstəxanada, vaqonlarda, hətta uşaq bağçaları və məktəblərin otaqlarında çoxlu sayda yaralananlar gördük".






**Başları kəsilmiş insan cəsədləri...**

**Müəllif vurğulayıb ki, "İzvestiya" qəzetinin əməkdaşı V.Bellax hadisəni belə qələmə almışdı:** "Zaman-zaman Ağdama meyitlər gətirilirdi. Tarixdə belə şeylər görünməmişdi. Meyitlərin gözləri çıxarılmış, qulaqları və başları kəsilmişdi. Bir neçə meyit zirehli maşınlara qoşularaq sürüklənmişdi. İşgəncələrin həddi-hüdudu yox idi".

**"Vaşinqton-Post" qəzeti:** "Dağlıq Qarabağ qurbanları Azərbaycan şəhərində torpağa basdırılıb. Qaçqınlar deyirlər ki, ermənilərin hücumu zamanı yüzlərcə adam həlak olub. Həlak olmuş yeddi nəfərin meyitini bu gün göstərdilər, onlardan 2-si uşaq, 3-ü qadındır. 120 qaçqın Ağdam hospitalındadır, onların bədənlərində çoxsaylı dərin yaralar var".

**"Tayms" qəzeti:** "Erməni əsgərləri yüzlərcə qaçqın ailəsini qırıblar. Sağ qala bilənlər xəbər veriblər ki, erməni əsgərləri 450-dən artıq azərbaycanlını güllələyiblər, onlardan çoxu uşaq və qadınlardır. Yüzlərcə, mümkündür ki, minlərcə insan itkin düşüb. "Onlar atəş açırdılar, atəş açırdılar, atəş açırdılar" - deyə Xocalıdan digər qadın və uşaqlarla birlikdə Ağdama qaçmış Raziyə Aslanova bildirib. O deyib ki, əri Kayun və oğlu öldürülüb, qızı isə itkin düşüb.

**"Sandi Tayms" qəzeti:** "Tomas Tolts erməni əsgərlərinin törətdikləri qırğınlar barədə məlumat verən ilk reportyordur. Xocalı sadə Azərbaycan şəhəri olub. Lakin dinc dövrdə əkinçiliklə məşğul olan minlərlə azərbaycanlının evi olub. Ötən həftə şəhər yer üzündən silinib".

**"Fayneyşnl tayms" qəzeti:** "Ermənilər Ağdama gedən qaçqın kalonunu güllələyib. Azərbaycanlılar 1200 meyit sayıblar. Livandan olan reportyor təsdiq edib ki, varlı daşnak icması Qarabağa silah və adam göndərir".

**"İzvestiya" qəzeti:** "Mayor Leonid Kravest: "Mən özüm yamacda yüzə qədər meyit gördüm. Oğlan uşaqlarından birinin başı yox idi. Hər yerdə xüsusi qəddarlıqla öldürülmüş qoca, qadın və uşaq meyitləri gördüm".

**"Le Mond" qəzeti:** "Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında 3 baş dərisi soyulmuş, dırnaqları çıxarılmış meyit göründülər. Bu, Azərbaycan təbliğatı yox, reallıqdır".

**"Valer aktual" jurnalı:** "Bu Muxtar vilayətdə erməni hərbi birləşmələr Yaxın Şərqdən olanlarla birlikdə ən müasir hərbi texnikaya, eləcə də vertolyotlara malikdir. ASALA Suriya və Livanda hərbi düşərgə və silah anbarlarını məhv ediblər, 100-dən artıq müsəlman kəndini qırıblar".

**"Qolos Ukrainı" qəzeti. V.Skaçko:** "Müharibənin sifəti olmur. Yalnız məkrli maska, qanlı göz yaşları, ölüm, bədbəxtlik, dağıntılar... Xocalıda körpələri nə üçün qətlə yetirdilər? Bəs analarını? Allah insanı cəzalandırmaq istəyəndə onun ağlını alır".

**Xocalı soyqırımı haqqında ilk məlumatı "Səhər" çatdırıb**

**A.Aşırlı "Türkün Xocalı soyqırımı" kitabında qeyd edib ki, Xocalı soyqırımı haqqında ilk məlumatı "Səhər" çatdırıb:** "Məzahir Süleymanzadə: "Xocalı faciəsi ilə bağlı respublikada müxtəlif fikirlər yaranmışdı, ilkin versiya belə idi ki, orada toqquşma nəticəsində cəmi 2-3 nəfər adam həlak olub. "Səhər" qəzetinin o zaman Qarabağda iki müxbiri çalışırdı. Bunlardan biri Şamil Ələkbərov, digəri isə Səriyyə Müslümqızı idi. Bu iki nəfər bilavasitə hadisə yerində idilər. Onlar Xocalı qaçqınlarını və oradan gətirilən saysız-hesabsız meyitləri Ağdamda qarşılamışdılar. Hadisənin canlı şahidləri kimi həm bizim redaksiyaya təcili şəkillər göndərmiş, həm də telefonla məlumat vermişdilər. Sonra Xocalı faciəsi olan gecə şəxsən mənə aeroportun mərhum rəhbəri Əlif Hacıyev zəng edərək olan vəziyyəti danışdı. Həmçinin Xocalının prokuroru Atakişi Atakişiyev zəng edərək faciə barədə məlumat verdi. Səhəri gün bütün qəzetlər Xocalıda biri-iki nəfərin yaralanması, həlak olmasını yazdığı halda, "Səhər" qəzetində əsl həqiqət dərc olundu. Biz Xocalıda ölənlərin sayının 1000-dən artıq olmasını bəyan etmişdik. Bu, çox böyük qəzəblə qarşılandı respublikada. Düzdür, bizim ilkin məlumatda göstərilirdi ki, Xocalı rayon icra hakimiyyətinin başçısı Elman Məmmədov da həlak olub. Ondan sonra Elman Məmmədov özü zəng edərək əvvəlcə informasiyaya görə təşəkkür etdi. Dedi ki, "mən sağam, sadəcə olaraq ayağımdan yaralanmışam. Deməli, adını çəkdiyim və çəkmədiyim adamlar, istər bizim müxbirlərimiz olsun, istərsə də orada çalışan adamlar olsun informasiyanı ilkin mənbədən verirdilər. Ona görə də təbii ki, biz informasiyanı aldığımız ilkin mənbəni qoyub dövlət kanallarının yaydığı informasiyaya üstünlük verə bilməzdik. Bütün qəzetçilik tələblərinə uyğun olaraq biz öz müxbirlərimizin sözlərinə daha çox önəm verdik, onlara daha çox inandıq. "Səhər" qəzeti 250000 tirajla çıxır, bütün ölkəyə yayılırdı".

**"Yeganə düzgün informasiya verən mətbuat orqanı "Səhər" idi"**

**Kitabda qeyd edilib:** "Məzahir Süleymanzadə deyirdi ki, xoşbəxtliyi onda idi ki, o zaman dünyanın demək olar ki, bütün aparıcı kütləvi informasiya vasitələri ilə əlaqələri var idi: "Səhər" qəzetinin adı ABŞ-ın, İngiltərənin, Almaniyanın, Yaponiyanın, Rusiyanın və başqa dövlətlərin rəsmi kataloqlarına daxil edilmişdi. Çox etibarlı informasiya mənbəyi kimi qəbul olunurdu. Xocalı faciəsi haqqında ilk məlumatlar bizim qəzet vasitəsilə çatdırıldı. Bundan çox qısa müddət sonra məxfi materiallar ələ keçirə bildik. 366-cı alayın komandiri Zarviqarovun gündəliyini əldə etdik. O gündəliklə bağlı məlumatları araşdırdıq. Mənim "366-cı alayın məhvi" adlı geniş məqaləm dərc olundu. Bu material rus dilində də ayrı-ayrı qəzetlərdə yayıldı. Rusiya, Ukrayna müstəqil mətbuatında da bunu dərc etdirdik. Bütün bunlar hamısı ağrılı-acılı, eyni zamanda unudulmaz hadisələrdir. Taleyin qismətindənmi, ya nədənmi bu hadisələri işıqlandırmaq bizim taleyimizə düşmüşdü".

**İsmayıl**



# Paşinyan tükənməyib...

## Ermənistanla bağlı son qərarı xarici dairələr verəcək

Ermənistan Baş naziri Nikol Paşinyanın "İsgəndər" raketi ilə bağlı açıqlamasından sonra düşmən ölkədə gərginlik pik həddə çatıb. Silahlı Qüvvələrin Baş Qərargah rəisi Onik Qasparyan, onun bütün müavinləri, hərbi birliklərin komandirləri Paşinyan əleyhinə birgə bəyanat imzalayıblar. Ordu baş nazirin istefasını tələb edib. Hərbçilərə görə, Baş Qərargah rəisinin birinci müavini Tiran Xaçatryanın istefaya göndərilməsi milli və dövlət maraqları nəzərə alınmadan atılmış yanlış addımdır. Onların fikrincə, bu qərarlar şəxsi ambisiyalara əsaslanır:

*“Belə çətin şəraitdə verilən qərar dövlət əleyhinə olan və məsuliyyətsiz addımdır”. Bəyanatda vurğulanıb ki, Ermənistanın baş naziri və onun hökuməti böhran zamanında adekvat qərarlar qəbul etmək iqtidarında deyil.*

**Paşinyan tərəfdarları və əleyhdarları üz-üzə**

**Nikol Paşinyan Baş Qərargahın bəyanatını hərbi çevrilişə cəhd adlandırıb. Baş nazir tərəfdarlarını Respublika Meydanına toplayıb və kütlə qarşısında çıxış edib:** ”Bütün zabit və generallara dövlət sərhədlərinin müdafiəsi işi ilə məşğul olmağı əmr edirəm. Bu mənim əmrimdir. Heç kim onu icra etməyə bilməz”. Paşinyan xalqın çevrilişə izn verməyəcəyini deyib: ”Ordu xalqa və xalqın seçdiyi hökumətə tabe olmalıdır. Ordu siyasi proseslərdə iştirak etməməlidir. Keçmiş hakimiyyət nümayəndələrinin orduda adamları var, onlar getməlidirlər. Məni satqın adlandırırlar. Deməli onlar, bura toplanan insanları da satqın sayırlar”.

**“Xalq Paşinyanın alternativlərinə nifrət edir”**

**”Vahid Ermənistan” Partiyasının sədri Xaçik Asryan deyib ki, Ermənistanın siyasi meydanında hələlik Paşinyan hökumətinə alternativ keçmiş korrupsioner hökumətin nümayəndələridir:** ”Keçmiş hakimiyyət nümayəndələri Paşinyana alternativ olduqca, əminliklə deyə bilərik ki, bizim cəmiyyət onların müdafiəsinə qalxmayacaq. Erməni xalqının böyük əksəriyyəti boz və ümidsiz keçmişə qayıtmaq istəmir”.

**“Hərbi qiyam: Nikol Paşinyan ölkədən qaçacaq?”**

**Erməni politoloq Armen Bədəlyan isə bildirib ki, əgər Baş Qərargah öz mövqeyini dəyişməsə, Baş nazir Nikol Paşinyan ölkədən qaçmağa məcbur olacaq:** ”Bəyanatı təkcə Baş Qərargah deyil, bütün korpus rəhbərləri imzalayıb. Bu isə o deməkdir ki, bütün ordu hakimiyyətə qarşıdır. Hətta əgər Paşinyan öz tərəfdarlarına silah paylasa, yenə orduya qarşı müqavimət göstərə bilməyəcək”. Bədəlyanın sözlərinə görə, Paşinyan heç nə edə bilməyən deputatları, polisi və qvardiyası ilə məsləhətləşir: ”Onların içərisində də Paşinyanı tam dəstəkləməyənlər var. Onlar indiki hakimiyyəti öz həyatları bahasına müdafiə etməyəcək. O ki qaldı sıravi vətəndaşlara, Paşinyan başa düşür ki, onlar orduya qarşı durmaq və hakimiyyəti qorumaq hayında deyil”. Ekspert Paşinyan tərəfdarları ilə xırda toqquşmaları da istisna etməyib: ”Əgər şəhərə ordu girsə, hamı qaçacaq, o cümlədən Paşinyanın tərəfdarları da. Bu, Baş Qərargahın birdən-birə, qəfil qərarı deyil. Bu bəyanatın əvvəlcədən planlaşdırıldığı istisna deyil”.

**“Erməni xalqının böyük əksəriyyəti boz və ümidsiz keçmişə qayıtmaq istəmir"**



**“Müharibədə məğlub olan və torpağı təslim edən hökumət getməlidir”**

*“Çiçəklənən Ermənistan” Partiyası Paşinyana çağırış edib.* Qurum Paşinyanı ölkədə vətəndaş müharibəsi yaratmamağa səsləyib. Bununla bərabər, polis və Milli Təhlükəsizlik Xidmətinə Paşinyanın əmrlərinə tabe olmamaq çağırışı edilib. ”İşıqlı Ermənistan” Partiyasının sədri Edmon Marukyan isə ordunu müdafiə edib. O, Baş Qərargahın bəyanatını çevriliş cəhdi saymadığını, bəyanatında dövlət təhlükəsizliyi və konstitusiyaya zidd heç bir şeyin olmadığını bildirib. Robert Koçaryan da erməniləri öz dövlətlərinin ağaları olmağa və ordunun yanında durmağa çağırıb: ”Müharibədə məğlub olan və torpağı təslim edən hökumət getməlidir. Bu, ilk növbədə milli dirçəlişimiz üçün lazım olan zəmanətdir”.

**“Vətəndaş müharibəsi başlasa, məhv olacağıq”**

Sabiq prezident Levon Ter-Petrosyan müxalifət və iqtidarı vətəndaş müharibəsi imkanlarını istisna etməyə çağırıb. O, vətəndaş müharibəsinin Azərbaycan və Türkiyənin arzusunu reallaşdırmaq olacağını bildirib. Petrosyan, həmçinin bunun erməni millətinin sonunun başlanğıcı olacağını deyib.



**“Ermənistanın daxili işidir...”**

Rusiya rəsmiləri Ermənistanda baş verənlərə münasibət bildiriblər. Kremlin mətbuat katibi Dmitri Peskov deyib ki, Moskva Ermənistandakı vəziyyəti həyəcanla izləyir: ”Hesab edirik ki, bu, Qafqazda bizim üçün çox vacib və yaxın müttəfiq olan Ermənistanın daxili işidir”. Rusiya Xarici İşlər Nazirliyi də Ermənistanda baş verənləri bu ölkənin daxili işi adlandırıb.

**“Ermənistanda stabillik Qarabağ üçün vacibdir”**

**Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, Ermənistanda stabillik Qarabağda atəşkəs üçün vacibdir.** Çavuşoğlu Ermənistandakı hərbi qiyam cəhdini pislədiyini açıqlayıb. Türkiyəli nazirin sözlərinə görə, Ankara İrəvandakı situasiyanı diqqətlə izləyir: ”Biz Qarabağla bağlı üç ölkə çərçivəsində razılaşmışıq. Bu ölkələrdə stabillik Qarabağda atəşkəs prosesini idarə etmək üçün vacibdir. Biz Ermənistandakı hadisələri KİV məlumatları əsasında izləyirik, çalışırıq, oradan öz kanallarımız vasitəsilə daha detallı məlumat əldə edək”.

**“Paşinyanın hakimiyyətdə qalıb-qalmaması daxili amillərdən asılı deyil”**

**Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Araz Aslanlı ”Şərq”ə deyib ki, Ermənistanda baş verənlər sadəcə müharibədən sonrakı vəziyyətlə bağlı deyil.** Bu ölkəni idarə edənlərin 1991-ci ildən bəri yürütdükləri uğursuz xarici və təhlükəsizlik siyasətinin acı nəticələridir. Ekspertin sözlərinə görə, Ermənistanda yaşanan siyasi böhran ölkənin aqibəti, gələcək siyasəti və qonşu ölkələrlə əməkdaşlıq baxımından önəm kəsb edir: ”Bu məsələlərdə Paşinyanın mövqeyi ilə siyasi rəqiblərinin yanaşması fərqlidir. Etiraz mitinqləri, Baş Qərargahın bəyanatı, ümumiyyətlə, Paşinyanın hakimiyyətdə qalıb-qalmaması daxili amillərdən daha çox xarici faktorlardan asılıdır. Məsələ ondadır ki, Paşinyan Qərb və Rusiya tərəfindən tam olaraq ”bezilmiş” hakimiyyət sayılmır. Əgər 44 günlük müharibə zamanı hakimiyyətdə Koçaryan-Sarkisyan kimi adamlar olsaydı, savaşdan dərhal sonra xalq onları devirərdi. Çünki cəmiyyət bu cür şəxslərdən doyub. Paşinyan isə ümidlər fonunda hakimiyyətə gəlmiş fiqurdur. Baş nazir müharibədə məğlubiyyətə uğrasa belə ”Qarabağ klanı” qədər özünü bitirməyib. Paşinyanın bütün alternativləri Ermənistanı indiki acınacaqlı duruma salan adamlardır. Bütün bu amillər baş nazirin mövqeyini gücləndirir və məğlubiyyətə rəğmən, hakimiyyətdə qalmasını şərtləndirir. Nilol Paşinyanın aqibəti, köhnələrdən kiminsə qayıdıb-qayıtmayacağı ilə bağlı yekun qərarı Ermənistanın asılı olduğu xarici dairələr verəcək”.

**“Baş nazir müharibədə məğlubiyyətə uğrasa belə “Qarabağ klanı” qədər özünü bitirməyib. Paşinyanın bütün alternativləri Ermənistanı indiki acınacaqlı duruma salan adamlardır”**

**“Paşinyan əvəzlənsə belə, heç kim yenidən müharibəyə başlamağa cəsarət etməyəcək”**

**Analitikin fikrincə, Ermənistandakı proseslər Qarabağdakı gedişata, Rusiyanın mövqeyinə ciddi təsir göstərməyəcək:** ”Azərbaycan hökuməti Qarabağ məsələsində indiki vəziyyətdən geriyə, mənfiyə doğru heç bir addım atmayacaq. Həmçinin, proseslərin neqativ hal almasına imkan verməyəcək. Torpaqlarımızın böyük hissəsi tam olaraq düşməndən təmizlənib. Sadəcə Xankəndi və ətrafı hələlik Rusiya sülhməramlılarının nəzarətindədir. Amma Xankəndi və ətraf bölgələrlə bağlı məsələnin Ermənistanda baş verənlərlə heç bir əlaqəsi yoxdur və olmayacaq. Hamı bilir ki, Qarabağ məsələsi və bölgədə kommunikasiyaların bərpası birbaşa Moskva-Bakı və Ankara arasında müzakirə olunur. Sabah kimsə Paşinyanı əvəzləsə belə, heç bir qüvvə yenidən müharibəyə başlamağa cəsarət etməyəcək. Hətta Sarkisyan və Daşnaksütyun partiyası hakimiyyətə gəlsə belə, mövcud vəziyyət dəyişməyəcək. Ermənistan dövlət olaraq anlaşmalara imza atıb, Yerevan hökumətləri bunu ləğv etmək üçün hüquqi statusa malik deyillər”.

**İsmayıl Qocayev**

# “Qarabağda müharibə təhlükəsi hələ qalmaqdadır”

## Ərəstun Oruclu: “Məhz bu səbəbdən də minalanmış sahələrin xəritələrini Azərbaycana verilməyə tələsmirlər”



Ermənilərin Xankəndidə "Dirçəliş günü"nü qeyd etməsi bəzi məsələləri yenidən gündəmə gətirdi. Əslində Xankəndideki separatçılar və siyasi avantüristlər şəhərin mərkəzi küçələrinə çıxaraq həmişəki kimi yerli erməniləri ələ salmaqla məşğul oldular. Maraqlı məqamlardan biri də əynində Qarabağdakı Rusiya sülhməramlı kontingentinə məxsus geyim olan keşiş idi...

44 günlük müharibə və onun nəticələri koçaryanlar, sarkisyanlar və paşinyanlar üçün elə soyuq duş effekti yaratdı ki, hələ də özlərinə gələ bilmirlər. Bu olanlardan sonra erməni cəmiyyətində gərginlik üstünə gərginliklər yaşandı. Separatçı rejim Ermənistandakı xaosu dəf etmək, xalqın "gözündən pərdə asmaq" üçün çırpınırlar.

*Bölgədəki durumlarla bağlı tanınmış politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu ”Şərq”in suallarını cavablayıb.*

**- Xankəndidəki son proseslər barədə nə düşünürsüz?**

- Ermənilərin ”Dirçəliş günü” tədbirini keçirməklərinin başlıca səbəbi Azərbaycana və dünyaya mesaj verməkdir. Yəni ”Biz əvvəlki mövqeyimizdə qalmışıq, Qarabağ Azərbaycanın tərkib hissəsi deyil, ermənilər Azərbaycanın tərkibində yaşamaqla heç vaxt razılaşmayacaqlar. Qondarma dövlətimizi qurmaqda davam edəcəyik”. Təbii ki, belə tədbirin keçirilməsi ağır məğlubiyyətdən sonra əhalidə müəyyən əhval-ruhiyyə, ümid yaratmağa yönəlib. Hazırda Ermənistanda, o cümlədən Qarabağdakı erməni icmasında məğlubiyyətdən irəli gələn ağır ruh düşkünlüyü var. Ona görə çalışırlar ki, bu əhvalı aradan qaldırıb, əhalini mübarizəyə köklənsinlər. Mübarizəni necə və hansı formada aparacaqlarını isə zaman göstərəcək.

**- Tədbirin rus sülhməramlıların müşayiəti ilə keçirilməsinə nə deyirsiz?**

- Rus komandanlığı Qarabağdakı qondarma erməni rəhbərliyinə desəydi ki, belə tədbiri keçirməsinlər, onlar heç bir halda Rusiyanın tələblərinə qarşı çıxa bilməzdilər. Lakin görünən odur ki, Rusiyanın özü bu məsələdə maraqlıdır. Bundan Azərbaycana təzyiq vasitəsi kimi istifadə edirlər.

**- Ermənilər Xankəndidə rus dilini də dövlət dili elan etdilər. Bu, nəyə hesablanıb?**

- Bu çox təhlükəli tendensiyadır. Pis bir sxemin izi görünür. Vaxtilə belə addımlar Abxaziyada, Cənubi Osetiyada və Krımda həyata keçirilib. Nəticədə hər üç bölgə Rusiyanın nəzarətinə keçib. Yəni mümkündür ki, Rusiya Qarabağdakı ermənilərə ikili vətəndaşlıq verməyə hazırlaşır. Rusiya sülhməramlıları adlandırdığımız hərbi hissələrin Qarabağa yerləşdirilməsinin məqsədi başqadır. Söhbət heç də sülhməramlı missiyadan getmir. Onlar hərbi təlimlər və humanitar proqramlar həyata keçirirlər. Faktiki olaraq Rusiya dövlət və hakimiyyət orqanlarının Qarabağda nümayəndəliklərini yaradırlar. Bu, heç bir halda sülhməramlı anlaşması çərçivəsinə sığmır. Belə yanaşma Rusiyanın bölgədə möhkəmlənməsinə yönəlmiş bir addımdır. Nəticə etibarı ilə bunun davamı da gələ bilər. Sonda Qarabağ erməniləri ikili vətəndaşlıq statusuna keçər: Bir tərəfdən Ermənistan, digər tərəfdən isə Rusiya vətəndaşlığı. Hər iki ölkədə ikili vətəndaşlıq proseduru kifayət qədər sadələşdirilib. Postsovet məkanında doğulub yaşayan əhalinin Rusiya vətəndaşlığı alması asandır. Rus dilinin rəsmi dil kimi elan edilməsi bu kimi təhlükələrə səbəb ola bilər.

> **“Mümkündür ki, Rusiya Qarabağdakı ermənilərə ikili vətəndaşlıq verməyə hazırlaşır”**

**- Ermənistanın revanş götürmə və ordu yaratmaq iddiaları da gündəmədir. Hətta bunu özləri səsləndirirlər. Effektli işlər görə bilərlərmi?**

- Bu proses 2020-ci il noyabrın 10-dan sonra başlayıb. Faktlarla sübut olundu ki, 10 noyabr üçtərəfli bəyanatına əsasən Rusiya sülhməramlıları erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılmasını təmin etməli olduğuna rəğmən tam əksinə fəaliyyət göstərirlər. Rus sülhməramlı qüvvələri bölgədə mina və qumbara atanlardan istifadə etməklə təlim keçir, bunu açıq şəkildə mediada işıqlandırırlarsa, onların niyyəti və Azərbaycana təzyiq istəyi göz önündədir. Çünki nə mina, nə də qumbara atanlar, sülhməramlı missiyasını həyata keçirən silahlı birləşmələrin arsenalına daxil olan silahlar deyil. O cümlədən Rusiya erməniləri silahlandırmaqla növbəti dəfə bölgə ilə bağlı hələ həyata keçirə bilmədiyi vəzifələri onlara dəstək verməklə etmək istəyirlər. Çünki rus hərbi birləşmələri özləri birbaşa olaraq bu işdə iştirak edə bilməz. Söhbət ilk növbədə bir neçə yaşayış məskəninin Azərbaycan Ordusunun nəzarətindən geri alınmasından gedir. O cümlədən Şuşa, Hadrut və Kəlbəcərin, eyni zamanda Cəbrayıl ərazisindən İrana keçən nəqliyyat dəhlizinin, Xudafərin qovşağının ələ keçirilməsindən gedir.

**- Bəs buna nail ola bilərlərmi?**

- Xeyr, düşünmürəm ki, bacarsınlar. Hətta Rusiyanın dəstəyi olsa da edə bilməzlər. Əvvəla ona görə ki, artıq Azərbaycan Ordusu gücünü göstərib. İkincisi, dövlətimiz tək deyil, Türkiyə yanımızdadır. Bizi hərbi və siyasi cəhətdən dəstəkləyən başqa ölkələr var. İstənilən belə addım təkcə Ermənistana yox, Rusiyanın özünə qarşı ciddi və beynəlxalq təpkilərə səbəb ola bilər.

**- Ermənistan azad etdiyimiz ərazilərdə minalı sahələrin xəritəsini verməməkdə israrlıdır. Rusiya isə bu problemi həll etməkdən boyun qaçırır. Məqsəd nədir?**

- Rusiya Qarabağ ermənilərini və Qarabağdakı separatçıları dirçəltməkdə davam edir. Belə görünür ki, müharibə təhlükəsi hələ qalmaqdadır. Məhz bu səbəbdən də minalanmış sahələrin xəritələrinin Azərbaycana verilməsinə tələsmirlər. Rusiya tərəfi isə erməniləri xəritəni verməyə məcbur etmir. Halbuki, söhbət ”sülh” və Qarabağda inteqrasiya prosesindən gedirsə, bunu etməlidirlər. Belə görünür ki, bütün bunlar söz xatirinə deyilib və baş aldatmaqdır. Xəritənin verilməməsi Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə hərəkətini məhdudlaşdırmaq, bərpa və abadlıq işlərinin gecikdirilməsinə xidmət edən, həmçinin itkilər yardan bir məsələdir. Bunların hamısı Azərbaycan dövlətinin suverenliyinə qarşı atılan addımlar olmaqla yanaşı, həm də mümkün və yeni müharibə təhlükəsindən xəbər verir.

**- Bəs, Azərbaycan tərəfi hansı işlər görə bilər?**

- Azərbaycanın ata biləcəyi yeganə addım rus sülhməramlıları və Rusiya dövlətindən həmin xəritələri tələb etməkdir. Hüquqi baxımdan beynəlxalq qurumlara müraciət edə bilmərik. Çünki Rusiya sülhməramlıları Qarabağ ərazisinə beynəlxalq təşkilatların qərarı ilə yeridilməyib. Bu, üçtərəfli və adi bir bəyanat əsasında olub. Bəyanatın beynəlxalq sülhməramlı mandatı yoxdur ki, həmin mandatı verən beynəlxalq təşkilat istər ruslara, istərsə də ermənilərə təsir göstərsin.

**- Gündəmdə olan əsas məsələlərdən biri də azərbaycanlılarla ermənilərin birgə yaşayışıdır. Belə bir şey mümkündür?**

- Biz azərbaycanlılarla ermənilərin birgə yaşayışını düşündüyümüz halda, qarşı tərəf tamamilə fərqli planlar cızır. Birgə yaşayış yaxın müddətdə bir neçə məsələ həllini tapana qədər, Qarabağın dağlıq hissəsində yaşayan ermənilərin statusu, onların Azərbaycan vətəndaşlığını qəbul etmək istəməsi, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması, ölkəmizə ərazi iddialarından imtina etməsi və Rusiyanın bu prosesə səmimi dəstək verməsi şərtləri ilə mümkündür. Hələlik bunun üçün heç bir zəmin yoxdur, hansısa şərtə əməl olunmur. Düşünürəm ki, Qarabağda yeni müharibə təhlükəsi var. Ona görə də birgə yaşayış kimi məsələlər barədə ciddi düşünməyimizə heç bir əsas yoxdur. Fikrimcə, ciddi olaraq birgə yaşayışı düşünmək hələ xeyli dərəcədə tezdir.

**Söhbətləşdi: Yeganə Bayramova**



## “Asan deyil, amma mümkündür”

### Beynəlxalq məhkəmə yolu ilə Zəngəzuru qaytara bilərik

**Sünik (Zəngəzur) bölgəsində demoqrafik vəziyyət mənfiyə doğru dəyişir. Son bir ildə 1300 erməni Süniki tərk edib.**

“Joxovurd” qəzeti bildirir ki, son bir ildə Ermənistanın bütün bölgələrində əhalinin sayı azalmaqdadır. “Məsələn, Lori bölgəsində 700, Araratda 100, Şirakda 400 nəfər azalıb. Ən çox azalma isə Sünikdə qeydə alınıb: 1300. Bu, yaxşı gələcək vəd etmir”, - qəzet yazır.

44 günlük müharibədən sonra Ermənistanın Sünik bölgəsində qanunsuz irəli çəkdiyi dövlət sərhədi də bərpa olunur. Sərhədin demarkasiyası nəticəsində bölgə üçün əhəmiyyətli əkin və otlaq sahələrinin də Azərbaycanın nəzarətinə keçməsi ermənilərin orada yaşamasını daha da çətinləşdirir. Növbəti illərdə Zəngəzuru tərk edən ermənilərin sayının daha çox olması gözləniləndir.

**Baş verən proseslər növbəti tarixi torpağımızın Azərbaycana qaytarılması ilə bağlı ümidlərimizi bir az da artırır. Politoloq Qabil Hüseynli isə düşünür ki, bu, ciddi səy tələb edən işdir:** “Elə asan proses deyil. Çünki Zəngəzur Zəngilan və Naxçıvanla birləşdirən dəmiryolu hələ çəkilməyib. Üstəlik, bu məsələ tərəflərin gündəmində deyil. Xatırladım ki, Sovet dövründə torpaqlarımızın xeyli hissəsi Ermənistana verilib.

Onlardan biri məhz Zəngəzurdur. Özü də çox bəsit əsas gətirilib. Guya, belə addım iqtisadi cəhətdən sərfəlidir. Ona görə prosesin tez həllini tapacağına inanmıram. Uzun illər lazım gələ bilər. Fəqət, bütün hallarda cəhd etməliyik.

Ancaq beynəlxalq məhkəmə, beynəlxalq hüquq yolu ilə Zəngəzuru qaytara bilərik. Deməli, əvvəlcə məsələmizi beynəlxalq səviyyədə ictimailəşdirməliyik”.

**Kənan**

## Türkiyəli həkimlər 3 gündə 150-dən çox qazimizi müayinə ediblər



**”YAŞAT” Fondunun dəstəyi ilə ölkəmizə gətirilən türkiyəli həkimlər 3 gün ərzində 150-dən çox qazimizi müayinə ediblər.**

Fonddan APA-ya verilən məlumata görə, ağır yaralı olan qazilərimizin bundan sonra da müalicə və əməliyyatları türkiyəli və yerli həkimlərin birgə rəyi əsasında davam etdiriləcək.

Xatırladaq ki, ”YAŞAT” Fondunun dəstəyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə Türkiyə Respublikasından həkim heyəti ölkəmizə gətirilib.

Həkim heyətinin tərkibində ortoped, beyin cərrahı, ümumi cərrah və digər ixtisaslı həkimlər olublar.

# Qisasımızı aldıq

## Xocalı soyqırımından bu gün 29 il ötür

**Düz 29 il öncə, fevralın 25-dən 26-na keçən gecə 20-ci əsrin ən böyük faciəsi, ən dəhşətli qətliamı yaşandı, soyqırım aktı baş verdi. İnsanlıqdan çıxmış, qandan bəslənən murdar qonşularımız qanlı havadarlarının köməyi ilə Azərbaycan türklərinə, xocalılara qarşı növbəti insanlıq dramı yaşatdılar.**

Həmin gecə erməni terror birləşmələri Rusiyaya məxsus 366-cı motoatıcı diviziya ilə birlikdə 7 min əhalisi olan Xocalı şəhərinə hücum etdilər. Köməksiz vəziyyətdə qalmış insanlara qarşı xüsusi qəddarlıq və amansızlıqla soyqırım aktı törətdilər. Tariximizə qanlı səhifələrdən biri kimi daxil olan Xocalı soyqırımında 106 nəfəri qadın, 83 nəfəri azyaşlı uşaq və 70 nəfəri ahıl olmaqla 613 nəfər dinc sakin amansızcasına qətlə yetirildi. 8 ailə tamamilə məhv edildi, 56 nəfər xüsusi qəddarlıqla öldürüldü. 25 uşaq hər iki valideynini, 130 uşaq bir valideynini itirdi. 76 azyaşlı körpə şikəst qaldı. 1275 nəfər isə girov götürüldü. 150 nəfər itkinin aqibətindən bugünədək xəbər-ətər yoxdur. Xocalı şəhəri ilə birlikdə 10 yaşayış məntəqəsi talan edildi, 2 tarixi abidə dağıdıldı. Qətliamdan dərhal sonra bölgəyə səfər edən yerli və xarici jurnalistlərin hazırladıqları reportajlardan aydın surətdə görünürdü ki, Xocalıda dinc, silahsız, köməksiz əhali xüsusi amansızlıq və qəddarlıqla qətlə yetirilib. Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı qətliamı kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirir. Əlbəttə, heç bir bəşəri cinayət cəzasız qalmamalıdır. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivil dünyaya qarşı yönəldilib. 29 il ərzində Türkiyə, Pakistan və Sudan dövləti, eləcə də Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Cibuti, Peru, Honduras, Panama, İordaniya, Rumıniya və Şotlandiya parlamentləri, həmçinin ABŞ-ın 24 ştatı soyqırıma hüquqi qiymət verib. Bu qətliamı azərbaycanlılara qarşı törədilən genosid aktı kimi tanıyıblar. Bütün bunlar dövlətimizin, ölkə başçısı cənab İlham Əliyevin, xüsusilə Heydər Əliyev Fondunun ”Xocalıya Ədalət” kampaniyası çərçivəsində həyata keçirdiyi ardıcıl fəaliyyət sayəsində mümkün olub. Əfsuslar olsun ki, bu barbarlıq hələ beynəlxalq səviyyədə soyqırım kimi tanınmır. Soyqırımın törədilməsində birbaşa iştirak etmiş Koçaryan-Sarkisyan cütlüyü də layiqli cəzalarını almayıblar. Amma bütövlükdə işğalçı Ermənistanın dərsi verilib, şəhidlərimizin qisası alınıb. Xocalı qatillərindən bir neçəsi də cəhənnəmə göndərilib. Şükürlər olsun ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin ”Dəmir yumruğu” və rəşadətli Ordumuzun qəhrəmanlığı, fədakarlığı nəticəsində 44 gün ərzində torpaqlarımız düşmən işğalından azad olundu. İşğalçı Ermənistana ağır və sarsıdıcı zərbələr endirildi. Xocalı və ərazi bütövlüyümüz uğrunda şəhid olan bütün qəhrəman övladlarımızın intiqamı alındı. Ərazilərimizi mənfur erməninin tapdağı altından xilas edəndən sonra düşmənin torpaqlarımızda




*Gün gələcək uşaq qatilləri bəşəriyyət qarşısında cavab verəcəklər*

həyata keçirdiyi vandalizmin və vəhşiliyin izlərini daha yaxından gördük. Heç şübhəsiz, bundan sonra həm Xocalı soyqırımı ilə bağlı həqiqətlər, həm də bütövlükdə erməni barbarlığı dünya ictimaiyyətinin diqqətinə daha geniş miqyasda çatdırılmalıdır. Bunun üçün hər bir Azərbaycan vətəndaşı əlindən gələni etməlidir. Beynəlxalq təşkilatları, tərəqqipərvər bəşəriyyəti erməni silahlı qüvvələri və terror təşkilatlarının törətdiyi Xocalı soyqırımına, digər vəhşiliklərə hüquqi və siyasi qiymət verməyə səsləməliyik.

**Millət vəkili Anar Məmmədov ”Şərq”ə bildirib ki, nəhayət, ”Dəmir yumruq” əməliyyatı ilə uşaq qatilləri öz layiqli cəzalarını aldılar.** Deputatın sözlərinə görə, tarix boyu Azərbaycan xalqına düşmən mövqedə dayanan və zaman-zaman əlinə keçən fürsətlərdən yararlanan qüvvələr xalqımıza qarşı qətliamlar, qırğınlar törədiblər: ”Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalıb. 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə sülh müqaviləsindən sonra Rusiya imperiyası tərəfindən Azərbaycanın tarixi torpaqlarına məqsədli şəkildə köçürülən ermənilər öz havadarlarının köməyi ilə zaman-zaman azərbaycanlılara qarşı kütləvi qırğınlar törədiblər. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam edib. 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunaraq Kür-Araz düzənliyində yerləşdirilib. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı bu ərazidən qovulub. Bununla da Ermənistan monoetnik dövlətə çevrilib. Erməni ideoloqlarının ”dənizdən dənizə Ermənistan” adlı sərsəm bir ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnib. 1992-ci ilin o müdhiş fevral gecəsində Ermənistan silahlı birləşmələri 366-cı alayın köməyi və iştirakı ilə Xocalı sakinlərinə qarşı dünyanın ən dəhşətli soyqırımını reallaşdırıblar. Xocalıda baş verənlər erməni xislətini bariz şəkildə sübut edən ən qanlı və acı səhnədir. Bu gün dünya ictimaiyyətinin Xocalı həqiqətləri barədə məlumatlandırılması istiqamətində işlər davam etdirilir. Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasətin nəticəsidir ki, artıq beynəlxalq təşkilatlar, aparıcı dövlətlər münaqişənin kökləri, səbəbləri və nəticələri barədə daha geniş məlumatlandırılır. Lakin bu bir həqiqətdir ki, cinayət heç vaxt cəzasız qalmır. 44 günlük Vətən müharibəsində qəhrəman Azərbaycan Ordusunun erməni təcavüzkarları üzərində tarixi Zəfəri ilahi və tarixi ədaləti bərpa etdi. Azərbaycanın ”Dəmir yumruq” əməliyyatı ilə darmadağın olan işğalçılar, uşaq qatilləri öz layiqli cəzalarını aldılar. Ancaq qisas bununla bitmir. Gün gələcək Xocalı vəhşətində birbaşa iştirak edən erməni caniləri layiqli cəzalarını alacaqlar”.

**İsmayıl Qocayev**

---

## Xocalı faciəsini unutdurmayaq!

İlkin Kərimov: “Hər birimiz əlimizdən gələni etməliyik”




**Əlbəttə, tarixi dəyişmək və onun yaddaşından nəyisə silmək mümkün deyil.**

Taleyin hökmü ilə nə vaxtsa baş verənlər illər boyunca xatırlanır, nəsildən-nəslə ötürülür. Eyni ilə otuz il əvvəlki Xocalı faciəsi kimi. Bəxti qara məlum tarixdə, yəni fevralın 25-dən 26-na keçən rus və ermənilərdən ibarət 366-cı motoatacı alayın iştirakı ilə Xocalı şəhəri işğal edildi. Həmin gün azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirildi. Nə qadına aman verdilər, nə uşağa, nə də yaşlıya. Hamısını ”qılıncdan keçirdilər”.

Biz bu gün, hətta tarixi ədalətin siyasi cəhətdən bərpa olunduğu bir vaxtda da Xocalı soyqırımını daim xatırlamalı və baş verənləri gələcək nəsillərə də çatdırmalıyıq. Bunun üçün dünyanın müxtəlif ölkələrindəki soydaşlarımız çox fəal çalışırlar.

**Rusiyanın Orenburq vilayətindəki Azərbaycan icmasının rəhbəri İlkin Kərimov Xocalı faciəsinin növbəti ildönümü ilə bağlı ”Şərq”ə danışdı:**

”Biz hər il tədbir keçirik. Həmin tədbirlərdə soyqırımla bağlı çəkilən müxtəlif filmlər nümayiş etdirilir, fikir mübadiləsi aparılır. Əlbəttə, bu, bizim vətəndaşlıq borcumuzdur. Hər birimiz əlimizdən gələni etməliyik. Əks halda nə Xocalı qurbanlarının ruhları bizi bağışlayar, nə də yetişməkdə olan nəsil”.

**Kənan**

---

# “Minalı xəritənin verilməməsi yeni savaş üçün səbəbdir”

İkinci Qarabağ müharibəsi ölkəmizin qələbəsi ilə yekunlaşdı. Üçtərəfli bəyanatın imzalanması ilə Ermənistanın məğlubiyyəti rəsmi olaraq təsdiqini tapsa da, qarşımızda böyük işlər durur. Hərb meydanında qələbə qazansaq da, siyasi masada, beynəlxalq tribunada mübarizəmiz davam edir.



Dövlətimizin görəcəyi ən önəmli işlərdən biri azad edilən ərazilərimizdə müvafiq tədbirlərin görülməsidir. Məsələn, minalı sahələrin təmizlənməsi, quruculuq və abadlıq işlərinin həyata keçirilməsi. Lakin Azərbaycan tərəfi nə qədər tələb etsə də, Ermənistan minalı sahələrin xəritəsini verməkdən boyun qaçırır. Bəzi iddialara görə, Rusiya dövləti minalı sahələrin harada yerləşdiyini bilir. Bu zaman belə bir sual çıxır ortaya: Ruslar xəritənin ermənilərin alınıb Azərbaycana verilməsini həyata keçirə bilərmi?

**Sualımızı cavablandıran Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev**

**Rus sülhməramlıları Azərbaycan mülki əhalisinin azad olunan ərazilərə qayıtmasında maraqlı deyil**

**”Şərq”ə bildirib ki, ermənilərin belə hərəkəti atəşkəsi pozmağa xidmət edən bir addımdır.**

Onun sözlərinə görə, ermənilər hərbi büdcələrinin yarısını ərazilərimizi minalamağa sərf ediblər: ”Minaların əksəriyyəti qaydasız olaraq xəritə ilə birgə basdırılıb. Məqsəd isə Azərbaycana daha çox zərər verməkdir. Əlbəttə, ruslar istəsələr, bir gecədə minalı sahələrin yerini bizə deyə bilərlər. Lakin bunu etmirlər. Çünki rus sülhməramlıları Azərbaycan mülki əhalisinin azad olunan ərazilərə qayıtmasında maraqlı deyil. Üçtərəfli bəyanatın bəndlərinin birində göstərilirdi ki, mülki əhalinin qayıtması üçün BMT-nin də funksiyası olmalı və bu qurumun imkanlarından istifadə edilməlidir. Lakin sülhməramlı adı altında bölgəyə yerləşdirilən rus hərbçiləri BMT-nin funksiyalarını mənimsəyiblər”.

*F.Quliyev qeyd edib ki, əslində minalı xəritənin verilməməsi yeni savaş üçün səbəbdir:* ”Ermənilər belə davranmağa davam edərlərsə, sərt addımlar atmağa məcburuq. Bu zaman atəşkəs üçün öhdəlik götürmüş Rusiya tərəfi diplomatlarımıza cavab verməli olacaqlar. Nə zaman olur olsun, işğaldan azad edilmiş ərazilərimizi nəzarətimizə götürüb, minalardan təmizləyəcəyik. Lakin ermənilər bu prosesləri ləngidirlər. Buna da cavabdeh Rusiya sülhməramlılarıdır”.

**Yeganə Bayramova**



# Əsgərlərini gözü kimi qoruyardı

## Amma özü ilahi səadətə addım-addım yaxınlaşırdı

**"Qəlpə ürəyinə dəyib, oktyabr ayının 5-də şəhadətə ucalıb"**

Yenə udqunaraq başlayıram yazıya, bir saygı, sevgi var sözlərimdə. Çünki şəhid qardaşlarımızın birindən yazacam. Adını hər qeyd etdikcə də əl saxlayacam, gözlərim dolacaq.

O, şəhid kapitan Cəfərli Həmid Kərim oğludur. 1990-cı il avqustun 1-də Bakı şəhərində dünyaya göz açıb.

**"Şərq"lə həmsöhbət olan igidimizin anası Zenfurə xanım deyir ki, Həmid dəcəl uşaq olmasına baxmayaraq, anlayışlı idi:**

"Dərslərini çox yaxşı oxuyardı, hətta sinif birincisi idi. Məktəb direktoru da onu fəxri fərmanla təltif etdi. 9-cu sinifdə Cəmşid Naxçıvanski adına Hərbi liseyə daxil oldu. Ali məktəbi bitirdikən sonra kəşfiyyat üzrə təhsil aldı. Tovuz rayonunda leytenant kimi çalışmağa başladı. O, işini çox sevirdi. Həmişə də haqqın tərəfində dururdu. Kiminsə haqqına girməzdi. Mərd, cəsur, təmiz qəlbli idi. İşindəki şücaətlərinə görə dəfələrlə fəxri fərmanlara layiq görüldü. Hər zaman işğaldakı torpaqlarımızın azadlığını arzulayırdı, buna da nail oldu. Müharibənin ilk günündən savaşa hazır idi. Deyirlər, 100-dən çox erməni öldürüb. Hətta onun məhv etdiyi düşmənin sayını itiriblər. Döyüşdə 2 ermənini əlləri ilə boğub, gəbərdib. İş yoldaşları ona "Azərbaycanın Rembosu" deyirlərmiş. Əsgərlərini də gözü kimi qoruyardı. Özü yeməzdi, içməzdi, onlara verərdi. Müharibədə 6 gün mühasirədə qalıblar. Sonra Həmidin sayəsində itki vermədən mühasirədən çıxıblar. Cəbrayılın ilk kəndini azad edib, ora birinci bayrağı Həmid sancıb.



**"Müharibədə 6 gün mühasirədə qalıblar. Sonra Həmidin sayəsində itki vermədən mühasirədən çıxıblar"**

Ardınca onun taboruna Füzuli istiqamətinə getmələri əmr olunub. Füzulinin birneçə kəndini alıb, sonra düşmən gülləsinə tuş gəlib. Qəlpə ürəyinə dəyib, oktyabr ayının 5-də şəhadətə ucalıb".

**Zenfurə xanım söyləyir ki, əsgərlərindən biri ona Həmid haqqında danışıb:** "Dedi ki, əllərindən öpürəm, ana". Son dəfə yağış yağarkən Həmidin namaz qıldığını söylədi: "Bizə əlcək payladı. Deyirdik ki, yağış yağmağa davam etsə, vəziyyət pisləşəcək. O isə saniyələr içərisində şəhid oldu. Aşağı düşüb, yoldaşlarımıza istiqaməti göstərdiyimiz zaman qəhrəmancasına şəhidlik zirvəsinə yüksəldi". Sonra "YouTube"də Həmidlə bağlı videonun rəy bölməsinə bir əsgəri yazmışdı. Bir yerdə vuruşduqlarını söyləyib, rəhmət diləyib: "Mən yaralandım, 10 gün sonra döyüşə qayıtdım. Dedilər, komandirin Cəfərli Həmid şəhid olub. Son dəfə rabitədəki sözlərini heç unutmuram. Söylədi ki, mən sağ tərəfdən girirəm, ürəkli oğul varsa, arxamca gəlsin. Biz də getdik, mən də xəsarət aldım. Onun yanında ola bilmədim. Yüksək insani keyfiyyətlərinin mükafatı kimi Allah ona şəhidlik zirvəsini nəsib etdi, öz arzusuna çatdırdı. Tanrının vacib buyurduğu əməllərə dəqiqliklə riayət edərdi. Bu da onu ilahi səadətə çatmağa addım-addım yaxınlaşdırdı".





*Şəhid kapitan Həmid Cəfərli II Fəxri Xiyabanda torpağa tapşırılıb. O, ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub. Onun 3 övladı - Cabbarı, Hüseyni, Zeynəbi yadigar qalıb.*

**Samirə Ərəblinski**



# Hər qarış torpaq təhlükəlidir

## Basdırılan minalara 340 milyon dollar xərclənib

Dmitri Vinoqradov "Svobodnaya pressa"da nəşr olunan "Qarabağın ucsuz-bucaqsız mina sahəsi. Ermənistan yüz milyonlarla dolları boş yerə xərclədi" adlı məqaləsində bildirib ki, Ermənistan böyük hərbi-texniki üstünlüyə malik olan Azərbaycan ordusunun sürətli hücumunu dayandıra bilmədiyi üçün çətin şərtlərdə sülh bağlamaq məcburiyyətində qaldı. O vurğulayıb ki, həmin vaxtdan regionda təxminən iki minlik Rusiya sülhməramlı kontingenti tərəfindən təmin olunan atəşkəs rejimi hökm sürür.

Məqalədə qeyd olunur ki, silahların səssizliyinə baxmayaraq, münaqişə zonasında hərbi və mülki şəxslər həlak olur. Bunun səbəbi isə sözün əsl mənasında hər həftə parçalanmış həyat və şikəst talelərdən qanlı məhsul verən Qarabağın hər yerinə səpələnmiş mina sahələridir. Sülh müqaviləsi bağlanan andan rusiyalı sülhməramlı daxil olmaqla 50-dən çox insan minaya düşüb. Müəllif yazır ki, ağır döyüşlərin getdiyi bütün rayonlarda - həm birinci, həm də ikinci Qarabağ müharibələrində - bu gün aktiv minalardan təmizləmə işləri aparılır. Bunlara azərbaycanlı və erməni mütəxəssislər, Rusiya sülhməramlı və Fövqəladə Hallar Nazirliyinin qüvvələri, eləcə də türkiyəli minatəmizləyənlər cəlb edilib. O qeyd edib ki, minalardan təmizlənmə uzun və resurs tələb edən prosesdir. Ötən ilin noyabrında döyüş əməliyyatları bitəndən bu yana Azərbaycanın 27 kvadrat kilometr ərazisi minalardan təmizlənib: "Bu kiçik ərazidə gələcəkdə təhlükə yarada biləcək təxminən 40 000 döyüş sursatı tapılıb. Söhbət təxminən 30 ildir erməni silahlı birləşmələri tərəfindən idarə olunan ərazilərdən gedir. Bu illər ərzində deməkolar ki, hər qarış torpaq minalanıb. 27 kvadrat kilometrlik təmizlənmiş kiçik bir ərazidə tapılan mina və partlamamış hərbi sursatların ümumi dəyəri 3 milyon dollara çatır. Minatəmizləyənlərin qiymətləndirməsinə görə, təmizlənən və ya gələcəkdə təmizlənməsi planlaşdırılan ərazilərdə təxminən 4,5 milyon mina basdırıla bilər. Mütəxəssislərin hesablamalarından aydın olur ki, Ermənistan tərəfindən basdırılan minaların ümumi dəyəri 340 milyon dollar ola bilər. Yerli miqyasda bu, astronomik məbləğdir. Belə çıxır ki, işğal illərində Ermənistan Azərbaycan ərazilərinin minalanmasına 2020-ci ilin hərbi büdcəsinin 50 faizini və ya dövlət büdcəsinin 10 faizini xərcləyib. Son Qarabağ müharibəsinin yekunlarına əsasən, qeyd olunmalıdır ki, üç onillik ərzində minalanmaya xərclənən yüz milyonlarla dollarla elm, təhsil və səhiyyə sahələrinə daha səmərəli sərmayə qoyula bilərdi. Bu gün həmin milyonlar sözün əsl mənasında torpağa basdırılıb və bir qayda olaraq müharibəyə dəxli olmayan insanların həyatını məhv etməyə davam edir".

### "İsrarla Ermənistandan minalanmış ərazilərin xəritəsi tələb olunmalıdır"

**Mövzu ilə bağlı "Şərq"ə danışan politoloq İlyas Hüseynov deyib ki, Ermənistan tərəfindən Azərbaycan ərazisində basdırılmış minaların xəritələrinin təqdim edilməməsi bir daha onu göstərir ki, Ermənistan öz xisləinə və terrorçu mahiyyətinə hələ də sadiqdir.** Politoloq qeyd edib ki, minalarla bağlı olan xəritələri Ermənistan tərəfindən tələb etmək lazımdır: "Çünki Ermənistan kapitulyasiya aktına imza atıb. Bununla bağlı olaraq beynəlxalq auditoriya, beynəlxalq instansiyalara müraciət etmək gərəkdir. Beynəlxalq təşkilatlar bu məsələyə diqqət ayırmalıdırlar. Çünki Azərbaycanın bu ərazilərə qayıdışı ilə bağlı böyük planlar həyata keçirilir. Bununla yanaşı minalardan təmizləmə ilə bağlı xüsusi bir agentlik də təsis olunub. Onların peşəkarlığının artırılması və istehkamçıların çətin relyefə uyğunlaşmaq şəraitində minalardan ərazilərin təmizlənməsi prosesi davam etdirilir".

Politoloq bir məsələni də vurğulayıb ki, Ermənistan tərəfi 10 noyabr bəyanatından sonra əraziyə göndərilən terrorçuların tutulması ilə bağlı da artıq bütün beynəlxalq təşkilatlara müraciətlər edib: "Onları hərbi əsirlər ilə eyniləşdirməyə cəhdlər göstərirlər. Lakin onlar terrorçudular və qeyri-qanuni şəkildə Azərbaycan ərazisinə basqın etmiş şəxslər hesab olunurlar. Onların tutulması hərbi əsirlərə şamil olunan normalarla uyğunluq təşkil etmədiyinə görə, onlar Azərbaycan qanunvericiliyinə görə məsuliyyət daşıyırlar. Əgər erməni tərəfi bu şəxslərin aqibəti ilə bağlı beynəlxalq instansiyalara dayanmadan müraciət edirsə və onları tələb edirsə, o zaman Azərbaycan tərəfi də minalanmış xəritələrin dəqiqliklə göstərilməsini tələb etməlidir. Fikrimcə, Azərbaycan diplomatiyası bu sahədə daha israrlı və qətiyyətli şəkildə fəaliyyət göstərsə, müsbət nəticəyə nail olmaq mümkün olar. Digər tərəfdən Ermənistan hərbi qulluqçuları əraziləri tərk edərkən də pərakəndə şəkildə minaları basdırıb gedirdilər. Bu da təbii ki, böyük çətinliklər yaradır. Bununla bağlı olaraq rəsmi şəxslər, aidiyyəti orqanlar tərəfindən dəfələrlə vətəndaşlarımıza müraciətlər olunub. Çünki minaların ərazilərdən tam təmizlənməməsi həyat üçün böyük təhlükədir. Qeyd edim ki, Ottava Konvensiyası piyada əleyhinə minaların istehsalını, onların tətbiqi və saxlanılmasını qadağan edir. Bununla yanaşı "Brüssel Bəyannaməsi", "Avropada Adi Silahların Məhdudlaşdırılması haqqında Cinah Sazişi", eləcə də "BMT Baş Assambleyasının 51-45 saylı qətnaməsi" piyada əleyhinə minaların istifadəsini məhdudlaşdırır və qadağan edir. Eyni zamanda adıçəkilən sənədlərə qoşulan bütün dövlətlər, piyada əleyhinə minaların tətbiqinin məhdudlaşdırılması ilə bağlı çağırışlar edirlər. Təbii ki, Ermənistanda hərbi sahəyə rəhbərlik edən şəxslərdə bu xəritələr mövcuddur. Ona görə də bu xəritələrin Azərbaycana təhvil verilməsini tələb etmək lazımdır".

**Aynurə Pənahqızı**

# Allahım, bunlara ağıl ver!

## Qarı yoldan səkiyə, sonra da səkidən yola tökürlər





**Əməlli başlı insanların əsəbləri ilə "qartopu" oynayırlar**

**"Deməli, qartəmizləyən maşın qarı təmizləyib səkiyə tökür, kommunal işçilər də gəlib səkidəki qarı kürüyüb yola atır. Beləcə, əl-ələ verib işləyirlər".**

Bu sözləri nəqliyyat eksperti, "Avtosfer.az" saytının baş redaktoru Elməddin Muradlı özünün "Facebook" səhifəsində yazıb. Doğrudan da deyildiyi kimidir. İki qurum sanki qartopu oynayırlar.

Bu ona atır, o da buna. Həmin səlahiyyətli şəxslərin "qar macəraları"ndan, ya da konkret desək, laqeydliklərindən əziyyət çəkən isə vətəndaşlar olurlar.

**Amma necə deyərlər, hər dərdin dərmanı var. E.Muradlı ideal həll yolunu "Şərq"ə açıqladı:**

"Dünya ölkələrində bu məsələ ilə bağlı müxtəlif təcrübələr var. Ən yaxşısı qarı bir yerdən götürüb çox uzaq - insanlara mane olmayan bir yerə tökməkdir. Lakin səkidən yola, yoldan səkiyə daşımaq isə yaxşı fikir deyil.

Bu, sadəcə baş qatmaqdır. Çünki belə olan halda başqa çətinliklər yaranır - vətəndaşlar, sürücülər yenə də narahat olurlar.

Ona görə də məsələnin kökündən həlli naminə müasir texnologiyalardan istifadə şərtdir".

**Kənan Novruzov**

## Cəbrayılda mülki şəxs minaya düşdü

### Güloğlan Mirzəliyev kənd-təsərrüfat fəaliyyəti ilə məşğul olurmuş



**Fevralın 25-də saat 14 radələrində Cəbrayıl rayon sakini, 1964-cü il təvəllüdlü Mirzəliyev Güloğlan İmran oğlunun işğaldan azad edilmiş Cəbrayıl rayonunun Mehdili kəndi ərazisində minaya düşərək xəsarətlər alması barədə Cəbrayıl rayon prokurorluğuna məlumat daxil olub.**

Cəbrayıl rayon prokurorluğundan verilən məlumata görə, araşdırmalarla Güloğlan Mirzəliyevin kənd-təsərrüfat fəaliyyəti ilə məşğul olarkən qeyd edilən ərazidə piyada əleyhinə minaya düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alması müəyyən edilib.

*Faktla bağlı Cəbrayıl rayon prokurorluğu tərəfindən araşdırma aparılır.*



## Daha 126 nəfər koronavirusa yoluxub

### 142 nəfər sağalıb, 3 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 126 yeni yoluxma faktı qeydə alınıb, 142 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 233 770 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 228 299 nəfər müalicə olunaraq sağalıb, 3 209 nəfər vəfat edib, aktiv xəstə sayı 2 262 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5 438, ötən müddət ərzində isə ümumilikdə 2 576 454 test aparılıb.

## Şaxtalı havada yıxılanların sayı 71 olub

### Yaralılardan 6-na yerində yardım göstərilib, digərləri xəstəxanaya çatdırılıb

**Şaxtalı havada yıxılanların sayı açıqlandı.**

Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasından Sputnik Azərbaycan-a verilən məlumata görə, fevralın 24-dən etibarən ümumilikdə 71 nəfər hava şəraiti ilə əlaqədar yıxılaraq müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Yaralılardan 6-na yerində yardım göstərilib, digərləri xəstəxanaya çatdırılıb.

*Qeyd edək ki, yaralılardan 38-i kişi, 33 qadın olub.*

# Səkidə sürüşüb yıxılanlar da bəlkə bilmir

## "Dünyanın heç bir şəhərində hamam kafelini küçələrə vurmurlar"





## "Hər şey görüntü yaratmaq və pul silmək xatirinə edilib, məqsəd və mahiyyətinə görə yox"

Qardan sonra Bakı küçələrində qış idmanının fiqurlu konkisürmə növü üçün "ideal" şərait yaranır. Buz üstə sürüşməyi öyrənmək istəyənlər qardan sonrakı Bakı küçələrinə kiçik turlar təşkil etsələr yetərlidir. Amma gərək qol-qıçı sındırmağı, başın dağıla biləcəyini də gözə alasan.

Nə demişlər, könlü balıq istəyənin... Yəni nəticələrə qatlanmaq gərək. Xüsusən də əgər səkilərə hamam, ayaqyolu metlaxı düzülübsə. Yəqin sanitar qovşaqları üçün ölkəyə kafel-metlax idxalı ilə məşğul olanlar, ya da bu döşəmə daşlarını ölkə daxilində istehsal edənlər onların təyinatını bilərəkdən unudur. Və "hər yerə döşəmək olar" prinsipi ilə davranırlar. Əslində, belə sürüşkən kafel-metlax daşları heç hamama, ayaqyoluna da yaramır, bu səbəbdən ki, oralarda ayağın sürüşüb, başın vannaya və ya unitaza dəyib parlanması təhlükəsi realdır. Ancaq bu daşlar paytaxt küçələrinin, səkilərin, parkların 90 faizinə döşənib. Görəsən, kimdir, insanların yıxılmağından həzz alan? Xatırlayırsınızsa, Bakı metropoliteninin "28 May" stansiyasının vestibüllərinə, platformaya metronun sabiq rəisi Tağı Əhmədov par-par parıldayan metlax düzdürmüşdü. Sərnişinlər zorla hərəkət edirdilər. Nədir bu, sürüşkən metlax sevgisi?

**Sosioloq Elçin Bayramlı bu problemə toxunub. Qarlı havada və sonrakı gün yıxılıb xəsarət alanların sayındakı artım bu sualı ortaya qoyub ki, səkilərə, parklara niyə sürüşkən metlax daşları düzülür? E.Bayramlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, burada ciddi yeyinti ehtimalı var:**

- Burada məqsəd görülən işi bahalı göstərmək və "pul yemək"dən ibarətdir. Dünyanın heç bir şəhərində hamam kafelini küçələrə vurmurlar. Ümumiyyətlə hər şey görüntü yaratmaq və pul silmək xatirinə edilib, məqsəd və mahiyyətinə görə yox. İnsanları kütləvi öldürmək və şikəst etmək məqsədilə parklara və səkilərə sürüşkən hamam kafelləri döşəyən cinayətkarlar hələ də həbs olunmayıb. Bunların sayəsində hər qar yağanda yüzlərlə insan yıxılıb qol-qıçını qırır, baş-beyni dağılır, bəziləri hətta əlil olurlar. Yağış yağanda da bu daşların üzəri sürüşkən olur. Yayda isə qızmar. Hər bir materialı təbiətə uyğunlaşdırmaq cəhdi sonda təbiətin məhvinə rəvac verir.

Qeyd edək ki, sosial şəbəkələrdə İslandiyada səkilərə qızdırıcı naqillər çəkilməsini əks etdirən foto yayılıb. Şəhər rəhbərliyinin bunu səkilərdəki qarın, buzun əriməsi üçün etdiyi izah olunur. O şəkli görəndən sonra, təkrar dönüb Bakı küçələrinə baxanda insanın özünə yazığı gəlir. Səkilərin qızdırılmasını hələ bir kənara qoyaq. Paytaxtda nəinki səkilər, parkların ərazisi, hətta yaşıllıq sahələrinə daş düzürlər. Hətta ağacları da daşlarla əhatələyirlər. Yazıq ağacların kökü nəfəs belə ala bilmir. Məqsədi anlamaq o qədər də çətin deyil. Konkret şəxslər daşlanmış həmin sahələri ticarət obyekti, ticarət köşkü üçün kimlərəsə satacaq. Birisi "toçka" yeri qazanacaq, faizini də hansısa məmur alıb yeyəcək. Yoxsa yaşıllıq sahəsi niyə daşla örtülsün ki?!

**E.Bayramlı bu cür özbaşınalığın yaşıllıqların məhvinə apardığını dedi:**

- Son dövrlər vəziyyət "dəyişib", indi ağacları daha "mütərəqqi" üsullarla gizlicə məhv edirlər. Ya gecə kəsirlər, ya dibinə kislota töküb qurudurlar və s. Bir az sonra orada bir biznes obyekti peyda olur. Bu sahədə tam özbaşınalıqdır. Bakı getdikcə səhra şəhərinə çevrilir. Yaşıllıq həcmi sovet dövründəkindən 2 dəfə azalıb, halbuki, əhali 2 dəfə artıb. Belə davam etsə Bakı ağır ekoloji faciələrlə üz-üzə qalacaq. Bu biabırçılıqlara son qoyulmalıdır.

**Məlahət Rzayeva**

# Xocalı soyqırımının tanıdılması əsas hədəfdir





## Elçin Bayramov: "Moldovada ictimai təşkilatlara bununla bağlı müraciət ünvanlayacağıq"

"Xocalıda törədilən insanlığa sığmayan dəhşətli qətliamdan 29 il ötür". Bu barədə "Şərq"ə açıqlamasında Moldova Azərbaycanlıları Konqresinin sədri Elçin Bayramov deyib. Diaspora rəhbəri bildirib ki, illərdir hər bir azərbaycanlı, nəinki təkcə Azərbaycanda, ölkəmizin hüdudlarından kənarda yaşayan hər bir soydaşımız bu qətliamı, erməni vəhşiliyini dünyaya tanıtdırmağa çalışır:

"O dəhşət dolu gecədə yaşananları dünya ictimaiyyətinə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur. Moldova Azərbaycanlıları Konqresinin sədri kimi vəzifəmə bir neçə ay əvvəl başlasam da, artıq erməni terrorunu, erməni vandalizmini yaşadığım və fəaliyyət göstərdiyim Moldova ictimaiyyətinə, ermənilərin hiyləgər xislətini dünyanın dörd bir yanına çatdırmaq üçün əlimdən gələni edirəm. Xocalı qətliamının qisasını 44 gün ərzində aldıq. Lakin bədnam düşmənlərimizlə mübarizəmiz bitməyib. Xocalı soyqırımından 29 il sonra da ermənilər İkinci Qarabağ müharibəsi zamanı Gəncə və Bərdədə törətdikləri terrorla bir daha sübut etdilər ki, illər ötsə də öz çirkin xislətlərini dəyişməyiblər. Mənfur ermənilər pis niyyətlərindən dönməyiblər. Ona görə də düşünürəm ki, qələbə çalsaq belə biz onların vəhşiliyini, törətdikləri terrorları dünya ictimaiyyətinə göstərməkdən çəkinməməliyik. Biz sadəcə həqiqətləri deyir və göstəririk. Missiyamız hələ bitməyib".

*E.Bayramov vurğulayıb ki, bütün tədbirlərdə, görüşlərdə ilk hədəf erməni vandallarının bədnam xislətlərini hər kəsə duyurmaq olmalıdır:* "Biz də öz növbəmizdə Moldova Azərbaycanlıları Konqresi adından Moldova Parlamentinə, Moldova dövlət başçısına, Moldovada olan bütün ictimai təşkilatlara Xocalı soyqırımının tanınması ilə bağlı müraciət ünvanlayacağıq. Ayın 25-də Azərbaycanın Kişinyovdakı səfirliyi və Azərbaycanlıların Moldovadakı konqresi ilə birlikdə Xocalı soyqırımının anımı ilə bağlı tədbir təşkil etdik. Tədbirdə Moldovanın ictimai xadimləri, parlament üzvləri, dövlət rəsmiləri, həmçinin Moldovada olan beynəlxalq təşkilatlar və dini icmaların nümayəndələri də iştirak etdilər. Anım tədbirində Xocalı qətliamını əks etdirən xüsusi film də təqdim olundu. Həmçinin, Xocalıda törədilən vəhşiliklərin bir hissəsini əks etdirən sərgi qonaqlara təqdim edildi. Azərbaycanın Moldovadakı fövqəladə və səlahiyyətli səfiri Qüdsi Osmanov Konqresimizlə sıx əlaqədədir və keçirdiyimiz bütün tədbirlərdə öz dəstəyini əsirgəmir". Məlumat üçün bildirək ki, Moldova Azərbaycanlıları Konqresi 2001-ci ildən Kişinyov şəhərində fəaliyyət göstərir. Konqresin başlıca məqsədi Moldovada yaşayan azərbaycanlıların vahid ideya ətrafında birləşməsi, soydaşlarımızla əlaqələrin genişləndirilməsi, onlar arasında birlik və həmrəylik hisslərinin gücləndirilməsidir. Moldovada yaşayan soydaşlarımız daim bəşəri dəyərlərin və mütərəqqi milli ənənələrimizin, dilimizin, mədəniyyətimizin daşıyıcısı olmuş, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında öz fəallıqları ilə seçiliblər. Konqres Mərkəz, Cənub, Şimal, Şərq və Qərb regionları olmaqla, 5 regional təşkilatı özündə birləşdirir.

**İsmayıl**



## "İstefa tələbi xalqa məxsusdur"

### Paşinyan müxalifəti həbslərlə hədələyib

**İrəvanın "Respublika" meydanındakı mitinqdə çıxış edən Baş nazir Nikol Paşinyan rəqiblərini həbslərlə hədələyib: "Əgər onlar siyasi bəyanatlar həddini aşarlarsa, həbs olunacaqlar".**

Bu barədə Kanal-Telegram "Sputnik. Yaxın xaric"ə istinadən məlumat yayıb. Məlumatda qeyd olunur ki, mitinqdə çıxış edən baş nazir "məxməri inqilablar" dövrünün başa çatdığına işarə edib, lakin növbədənkənar parlament seçkilərinin keçirilməsi təklifinin qüvvədə qaldığını deyib. Paşinyan müxalifətlə məsləhətləşmələr aparmağı təklif edib. Baş nazir populist bəyanatlardan da yan keçməyib: "İstefa tələbi xalqa məxsusdur. Qoy xalq mənim istefamı tələb etsin, qoy məni meydanda güllələsinlər". Əvvəlcə verilən məlumatlarda bildirilirdi ki, Paşinyan tərəfdarlarının qarşısına çıxıb. Ölkədəki vəziyyətin nəzarət altında olduğunu deyib və qarşıdurmadan qaçmaq üçün hamını sakitliyə dəvət edib. O, hərbçilərinin "istefa" çağırışlarını emosional reaksiya adlandırıb və o, onları ölkənin sərhədlərini və ərazi bütövlüyünü qorumağa çağırıb. Qeyd edilir ki, Paşinyana qarşı olanlar "Vətənin müdafiəsi naminə" siyasi hərəkatını yaradıblar, hərəkatda 17 siyasi partiya cəmləşib. Paşinyansa baş verənləri dövlət çevrilişinə cəhd adlandırır. Və xalqı qarşısında təmiz olduğunu iddia edir.

**Məlahət**

## "Ermənilər şeytandan əmələ gəliblər"

### Heç dünyada belə bir hal olmayıb ki, 28 il ərzində böyük kəndlər yer üzündən tamamilə silinsin

**Xarici ölkə jurnalistləri Ağdama səfər edib. Səfərdə məqsəd xarici medianın Xocalı faciəsi haqqında daha ətraflı məlumatlandırılmasıdır.**

Prezident Administrasiyası və Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə təşkil olunan səfərdə yerli və xarici jurnalistlər iştirak edirlər. İşğaldan azad olan Ağdam şəhərinə səfər edən media nümayəndələri ilk olaraq Ağdam cümə məscidinə gəliblər.

**Səfərlə bağlı "Şərq"ə danışan millət vəkili Elman Məmmədov söyləyib ki, Xocalı soyqırımının təbliği üçün çoxlu sayda işlər görülür.**

Parlament üzvü qeyd edib ki, diaspor təşkilatımız olan ölkələrdə Xocalı ilə bağlı tədbirlər keçirilir: "Ölkəmizə gələn xarici jurnalistlərin həqiqətləri öz gözləri ilə görməkləri çox vacibdir. Müxtəlif ölkələrin media nümayəndələrinin azad edilmiş ərazilərimizə səfərləri təşkil olunub. Ermənilərin dinc əhaliyə qarşı törətdikləri təxribatlar xarici KİV-lərdə yayımlanırsa, bu, həqiqətlərimizi dünyaya çatdırmaq baxımından mühümdür. Məqsəd erməni vəhşiliyini, onların yaramazlığını, insani davranışlara aid olmayan hərəkətlərini beynəlxalq aləmə çatdırmaqdır. Ermənilər özlərini mədəni və məzlum xalq kimi təqdim etsələr də, belə səfərlərin təşkili onların iç üzünü açır. Jurnalistlərin azad edilmiş ərazilərimizə getməsi kifayət edir ki, onlar ermənilərin kim olduqlarına qiymət versinlər. Dünyada çox müharibələr olub. Amma heç bir müharibənin nəticəsində belə bir hal olmayıb ki, 28 il ərzində böyük kəndlər yer üzündən tamamilə silinsin. Bunlar erməni vəhşiliyinin nümunəsidir. Bütün millətləri Allah yaradıb, lakin ermənilər şeytandan əmələ gəliblər. Ölkəmizə gələn əcnəbilərin yerində işlər görməsi çox vacibdir. Bu, Azərbaycanın haqlı və ədalətli olduğunu sübut edir".

**Yeganə**

# "İsgəndər" ölməyib, hələ yaşayır...

## "Bu, Rusiyanın nüvə silahından sonra ikinci güclü taktiki hücum silahı hesab olunur"



"Moskva, sadəcə, Ermənistanda idarə edilməsi mümkün olan kriz yaratmaq niyyətindədir"

Ermənistanın Baş naziri Nikol Paşinyan "İsgəndər" raketləri ilə bağlı açıqlamasının Rusiya ilə münasibətlərə mənfi təsir edəcəyini anlayaraq əvvəlki sözlərinə düzəliş etməyə çalışıb.

Paşinyan hökumətin iclasında bildirib ki, Ermənistan silahlı qüvvələrinin islahatlarını sürətləndirmək məqsədilə "yol xəritəsi" hazırlanacaq. "Yol xəritəsi"ndə Ermənistanın təhlükəsizlik sahəsində bir nömrəli tərəfdaşı - Rusiya ilə sıx əməkdaşlıq ediləcək. Paşinyanın sözlərinə görə, iki ölkə arasında təhlükəsizlik və hərbi-texniki sahədəki əməkdaşlıq bundan sonra daha effektiv olacaq. Rusiyadan Paşinyanın "İsgəndər"lərin yararsız olması barədə dediklərinə cavab gəlib. Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Moskva bu məsələni şərh etmir: "Sadəcə onu deyə bilərik ki, Rusiya texnikası dəfələrlə öz effektivliyini dünyanın müxtəlif nöqtələrində nümayiş etdirib".

**Paşinyanın Rusiyanı hiddətləndirəcək açıqlamasını "Şərq"ə dəyərləndirən politoloq Azər Qasımov bildirib ki, "İsgəndər" raketləri Rusiyanın nüvə silahından sonra ikinci güclü taktiki hücum silahı hesab olunur. Siyasi şərhçinin sözlərinə görə, NATO-nun hərbi təlimləri zamanı Rusiya bu silahdan çəkindirici və qorxuducu güc kimi istifadə edir:** "Rusiya bu raketləri Kaliningradda yerləşdirdiyini açıqlayıb. Paşinyanın "İsgəndər" raketinin əhəmiyyətini azaldacaq bəyanatı Rusiyanın təhlükəsizlik siyasətinə təhlükədir. Ermənistan ordusu Rusiya Silahlı Qüvvələrinə göbəkdən bağlıdır. Silahların 98 faiz ruslara məxsusdur. Zabit heyəti Rusiyaya bağlıdır. Rusiya rəsmiləri Paşinyanın məlum bəyanatına ehtiyatlı yanaşsalar da, tamamilə səssiz qalmayacaqlar. Məhz Ordunun Paşinyanı istefaya çağırması bu bəyanatın nəticəsidir". A.Qasımovun fikrincə, prosesin kökündə Amerika və Rusiyanın geopolitik maraqlarından tutmuş, Azərbaycanın müharibədə qələbə çalmasına qədər müxtəlif səbəblər dayanır: "Paşinyan-Kreml əlaqələri pozulmayacaq. Bu, Kremldən gələn mesajlarda özünü göstərir və qeyd edilir ki, baş verənlər Ermənistanın daxili işidir. Kreml hələlik Ermənistanda Paşinyana alternativ tapa bilməyib. Erməni cəmiyyəti etirazçılara dəstək verməməklə köhnə rejimləri istəmədiklərini göstərirlər. Əslində Moskva Ermənistanda idarə edilməsi mümkün olan kriz yaratmaq niyyətindədir. Rusiyanın bir müddət sonra qərbyönlü Paşinyanı devirmək planını işə salacağı istisna edilmir. İndiki məqamda Amerikanın Paşinyana nə dərəcədə dəstək verəcəyi önəmlidir. Gərginlik isə bir müddət davam edəcək".

**İsmayıl Qocayev**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi




# Görməli olduğumuz işlər çoxdur

### Xocalı soyqırımının dünyada tanıdılması üçün prinsiplərimizdən heç zaman geri çəkilməməliyik

Bu gün Xocalı soyqırımının 29 illiyi tamam olur. Təbii ki, bu 29 illik zaman çərçivəsində faciənin dünyada tanıdılması istiqamətində müxtəlif addımlar atılıb. Xüsusən də Azərbaycan mətbuatı və jurnalistləri Xocalı soyqırımının beynəlxalq aləmdə təbliği baxımından çox böyük işlər görüb. Ötən zaman kəsiyində lazım olan məlumatları, materialları dünya ictimaiyyətinə çatdırmağa çalışıblar. Azərbaycan mətbuatı bacardığı qədər fəallıq göstərib ki, soyqırımı dünya ictimaiyyətinə tanıda bilsinlər.

Media nümayəndələri də hesab edir ki, siyasi yönümündən asılı olmayaraq, bütün qəzetlər, saytlar bu istiqamətdə kifayət qədər uğurlu işlər görüblər. Xüsusən Azərbaycan mətbuatı Xocalı soyqırımı ilə bağlı zəruri informasiyaların təkcə ölkə daxilində deyil, həm də müxtəlif dillərdə dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayıb. Bura ayrı-ayrı jurnalistlərimizin müəllifliyi ilə hazırlanan müxtəlif nəşrləri, sənədli filmləri də əlavə edə bilərik. Məsələn, "modern.az" saytının baş redaktoru Elşad Eyvazlının Xocalıya həsr olunan "Böyüməyən uşaqlar" kitabı, tanınmış telejurnalist Elmar Məlikovun Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri Hikmət Cavadovla birgə ərsəyə gətirdiyi "Cəhənnəmi görmüş pilot" filmi soyqırımı dünya ictimaiyyətinə müxtəlif dillərdə məhz şahidlərin dili ilə çatdırıb. Azərbaycan mediası hər il Xocalı soyqırımı günahkarları ilə bağlı yeni-yeni faktlar ortaya qoyur. Bu gün də ən mühüm vəzifələrdən biri Xocalı soyqırımını media vasitəsilə daha çox beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqdır. Düzdür, Xocalı soyqırımı ilə bağlı foto-video faktlar, şahid ifadələri yetərincədir. Təbii ki, medianın əsas işi onları düzgün istiqamətdə yaymaqdır. Əslində dünyanın erməni vəhşiliyindən xəbərdar olduğunun sübutu 1992-ci ildə xarici mətbuatda Xocalı faciəsi haqqında yazılanlar, dərc olunan informasiyalar, məqalələrdir.

Xarici ölkə jurnalistlərinin yazdıqlarını oxuyanda, "Azərbaycan həqiqətlərini lazımi səviyyədə dünya ictimaiyyətinə çatdıra bilməmişik" iddiasının əsassız olduğunu açıq-aydın şəkildə görə bilərik. Əslində dünya dövlətləri hər şeyi çox gözəl bilir və hərtərəfli məlumatlıdırlar. Sadəcə, bəzisi nəyinsə müqabilində, bəzisi isə bəlkə də sırf ermənipərəstliklərindən Azərbaycanın haqq davasını təsdiq etmək istəmir. Qeyd edək ki, Xocalı soyqırımının 26-cı ildönümü xarici ölkələrin kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb. Bütün bunlar təbii ki, Xocalı faciəsinin bir reallıq olması, bir çox dövlətlər və təşkilatlar tərəfindən tanınması ilə əlaqədar idi. Eyni zamanda, Azərbaycan dövlətinin rəsmi səviyyədə və vətəndaş cəmiyyəti institutlarının apardığı işlər də xüsusi qeyd edilməlidir. Qeyd edək ki, sadəcə, 26 fevral tarixində yox, ilin qalan günlərində də "Xocalıya ədalət" kampaniyası çərçivəsində müəyyən işlər görülür. Məhz bu siyasətin nəticəsidir ki, bir neçə ölkə Xocalı faciəsini soyqırım kimi tanıyıb. Ümumiyyətlə, media müstəvisində Xocalı soyqırımının təbliğatı necə qurulmalıdır? Xarici media ilə əməkdaşlıq hansı istiqamətlərdə aparılmalıdır? Bir çox tanınmış media nümayəndələri "Şərq"in suallarını cavablandırıb.

**Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru, tanınmış jurnalist Vüqar Ziferoğlu "Şərq"ə açıqlamasında vurğulayıb ki, Xocalı soyqırımı sivil dünyanın gözü qarşısında baş vermiş vandal aktıdır və insanlığa qarşı bir cinayətdir.** V.Zifəroğlu bildirib ki, təəssüf ki, bu gün də bir sıra aparıcı Qərb ölkələri məhz ikili yanaşmalarından, geosiyasi maraqlarından və bəzən də yersiz dini təəssübkeşliklərindən irəli gələrək hələ də bu soyqırım aktına lazımi şəkildə münasibət bildirmirlər: "Yaxşı haldır ki, Xocalı soyqırımının dünyada tanıdılması ilə bağlı dövlətimiz tərəfindən mütəşəkkil, sistemli və çoxşaxəli iş aparılmaqdadır. "Xocalıya ədalət" kampaniyası çərçivəsində hər il dünyanın müxtəlif nöqtələrində görülən işlər bunun ən parlaq nümunəsidir. Bunun nəticəsidir ki, il-ildən Xocalı soyqırımını tanıyan ölkələrin sayı artır, eləcə də bununla bağlı xarici ölkələrdə keçirilən tədbirlərin miqyası böyüyür".

Media eksperti əlavə edib ki, təbii ki, doğruların çatdırılmasında, həqiqətin gözlər önünə sərilməsində medianın önəmli rolu danılmazdır: "Ölkə mediasında təkcə Xocalı soyqırımı deyil, ümumiyyətlə, birinci Qarabağ savaşı dönəmində yaşanan faciələrimiz hər zaman diqqətdə saxlanılır. Bu zaman müxtəlif veriliş formatlarından, janrlardan da geniş istifadə edilir. Amma bununla yanaşı Xocalı soyqırımı ilə bağlı beynəlxalq mediada da lazımi materiallar yayınlanmalıdır. Bunun nəticəsində də xarici auditoriyaya ünvanlanmış mesajlarımız çatdırılmalıdır. Təbii ki, bu istiqamətdə də müəyyən irəliləyişlərimiz var".

V.Zifəroğlu vurğulayıb ki, Xocalı soyqırımının tanıdılması ilə bağlı əldə etdiyimiz nailiyyətlərlə kifayətlənmək olmaz: "Beynəlxalq media ilə Qarabağ həqiqətlərinin tanıdılması istiqamətində bundan sonra da ciddi işlər aparılmalıdır. Nəzərə almaq lazımdır ki, bu zaman biz iki əsas hədəfə istiqamətlənmiş oluruq. Birincisi, xarici auditoriyanın baş vermiş faciələrlə bağlı obyektiv təsəvvürünü yaradır və möhkəmləndiririk. Onlar 20-ci əsrin 90-cı illərinin əvvəllərində başımıza gətirilən bu faciələr barədə həm məlumatlı olurlar, həm də onlarda soyqırım barədə geniş təsəvvür formalaşır. İkincisi isə ermənilərin beynəlxalq media vasitəsi ilə bu istiqamətdə qurduqları manipulyativ xarakterli yalanlar ifşa oluur. Əslində düşmən tərəfin münaqişənin mahiyyətini təhrif edən və 80-ci illərin sonlarından formalaşdırdıqları fikirlər dağıdılır. Nəticədə ermənilərin bizə qarşı apardıqları informasiya müharibəsi cəbhəsində beynəlxalq medianın timsalında vacib və təsir gücü böyük olan meydan əldə edirik". Tanınmış jurnalist Azər Həsrət "Şərq"ə açıqlamasında diqqətə çatdırıb ki, Xocalı soyqırımı hər bir azərbaycanlı və türk üçün çox ağrılı və acılı bir gündür. Media eksperti qeyd edib ki, amma sevindirici haldır ki, biz artıq işğalda olan torpaqlarımızı azad etmişik: "Əlbəttə ki, Xocalı soyqırımının dünyada tanıdılması, bu faciə ilə bağlı dünya ictimaiyyətini bilgiləndirməkdən heç zaman geri çəkilməməliyik. Yəni dünya bilməlidir ki, ermənilər təkcə bir şəhərdə Azərbaycan xalqının başına nə oyunlar gətiriblər. Təbii ki, biz bunları bütün dünyaya təbliğ etməliyik".

> "İlk növbədə Azərbaycan diaspor nümayəndələri olduğu ölkələrdə mətbuatla çox sıx işləməlidirlər"

*Azər Həsrət xarici mediada bu həqiqətlərin təbliğinin kifayət qədər olmadığına diqqət çəkib:* "Bu iş əslində necə qurulmalıdır? İlk növbədə Azərbaycan diaspor nümayəndələri olduğu ölkələrdə mətbuatla çox sıx işləməlidirlər. İkincisi və çox təəssüf ki, ən ağrılı tərəfi. Azərbaycan səfirlikləri olduqları ölkədə mətbuatla intensiv iş qurmalıdırlar. Çox təəssüflər olsun ki, bizim səfirliklərimiz bu işi demək olar ki, qura bilmirlər. Yaxud da ki, bunda maraqlı olmurlar. Şəxsən bildiyim xeyli ölkə var ki, Azərbaycan səfirliklərinin orda mətbuatla, jurnalistlərlə, vətəndaş cəmiyyəti ilə çox geniş iş qurmaq imkanları var. Hətta bizə yaxın olan türk ölkələrində belə bu iş yetərincə qurulmur. Buna görə də, bəzən qardaş türk ölkələrindən və millətindən olan insanlar (qazax, qırğız, özbək, türkmən, tatar) bizə qarşı yazılar yazır və fikirlər səsləndirirlər. Bunun da səbəbkarı təbii ki, biz özümüzük. Çünki o yeri boş qoyduğumuza görə ermənilər doldurur və bundan bizə qarşı istifadə edirlər. Nə etməli? Əlbəttə ki, bütün dünyaya potensialımız çatmaya bilər. Amma özəlliklə keçmiş sovet respublikaları, türk ölkələri, eləcə də Avropanın aparıcı ölkələri ilə işləyə bilərik. Bunun üçün bu işləri bacaran adamları önə çəkmək və etimad göstərmək lazımdır. Hazırkı informasiya savaşında da diqqətli olmalıyıq və qalib gəldiyimizə görə, əlimiz-qolumuz boşalıb arxayınlaşmamalıyıq. Çünki ermənilər müharibədən öncəkindən də qat-qat artıq informasiya savaşı aparmaqdadırlar. Buna görə də uyğun qurumlar və media nümayəndələri fürsəti əldən verməməlidir".

**Tanınmış jurnalist Elman Babayev "Şərq"ə açıqlamasında bildirib ki, ermənilərin Xocalı şəhərində törətdiyi genosid cinayətinin 29-cu ildönümünü Azərbaycan tamamilə başqa əhval-ruhiyyədə yad edir:** qalib gəlmiş, qisasını almış, tapdanmış qürurunu özünə qaytaran xalq kimi! O qeyd edib ki, 44 günlük Vətən müharibəsində təkcə torpaqlarımız azad olunmadı, şəhidlərimizin qisası alınmadı, həm də dəhşətli Xocalı faciəsinin qurbanlarının intiqamı alındı: "Qisasa qisas deyildi, amma fərqli yanaşma ilə. Azərbaycan xalqı özünün insanpərvərliyini, dinc sakinlərə qarşı humanizm prinsipləri çərçivəsində yanaşmasını bütün dünyaya bir daha nümayiş etdirdi. Sübut üçün şəkillər var, videolar var, dünya ictimaiyyəti bu isbatlardan başqa, heç bir əks-dəlilə malik deyil. Əks halda erməni mətbuatı bütün dünyanı ayağa qaldırmışdı".

**E.Babayev qeyd edib ki, qisas alınıb, amma təbliğat dayanmayıb:** "Xocalı soyqırımı ilə bağlı görməli olduğumuz işlər çoxdur. Soyqırımın tanınması istiqamətində kampaniya daha böyük əzmlə aparılmalıdır. Məlumdur ki, indiyə qədər bu istiqamətdə böyük işlər görülüb. Xocalı soyqırımının tanınması üçün görülən işlər bütün sərhədləri aşıb. Son illər bu faciənin bütün dünyaya çatdırılması baxımından kəskinliklə fərqlənib. Dünyanın 60-dan artıq ölkəsində bu genosid siyasəti hərtərəfli anladılıb. Bir sıra ölkələrdə soyqırımın tanınmasına nail olunub. Xocalı soyqırımının dünya arenasında geniş təbliğində dövlət qurumları, səfirliklər, Heydər Əliyev Fondu, QHT-lər, xarici ölkələrdəki diaspora təşkilatları mühüm işlər həyata keçirib. Fəqət əldə olunan qələbə, alınan qisas təbliğatda axsamalara, passivliyə yol açmamalıdır. Düşmənin acı məğlubiyyətə rəğmən dayanmaması, faşist xislətindən əl çəkməməsi danılmaz fakt kimi qarşımızdadır. Belə olan təqdirdə xalqımıza qarşı törədilən cinayətləri, Xocalı soyqırımını bir an olsun belə unutmamalıyıq. Məhz unutqanlığımız tarix boyu bizim əsas bəlamız olub. Onu da unutmamalıyıq ki, beynəlxalq aləmin Xocalı genosidi üzərində ədalətsizliyi hələ də hökm sürməkdədir. 44 günlük Vətən müharibəsində düşmənin müharibə cinayətlərinə susan beynəlxalq ictimaiyyət illərdir Xocalı soyqırımına da yetərli reaksiya verməyib. Xarici dövlətlər üzərlərinə düşən işi hələ də yerinə yetirməyiblər. Hadisəni hüquqi baxımdan tanımaq istəmir, soyqırımı genosid faktı kimi adlandırmağa maraq göstərmirlər. Ona görə də Azərbaycan və Azərbaycan mediası dünyanın ədalətsiz mövqeyi qarşısından geri çəkilməmək, faciəni unutmamaq, hadisənin genosid cinayəti olduğunu dünyaya sübut etmək prinsipində möhkəm dayanmaqda qərarlılığını heç vaxt itirməməlidir".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# 70 dollara yaxınlaşır...

## Neft dövrü hələ başa çatmayıb



Neftin qiymətində artım müşahidə edilir. Bu, ötən ildən dünyanın başını qatan pandemiyanın artıq səngiməyə doğru getdiyi anlamına gəlirmi? Azərbaycan üçün hazırda əsas məsələnin işğaldan azad edilmiş ərazilərdə abadlıq, yenidənqurma işlərinin aparılması olduğunu nəzərə alsaq, neftin qiymətindəki artım prosesi nə dərəcədə sürətləndirə bilər? İqtisadçı Pərviz Heydərov neftin qiymətindəki yüksəlmə fonunda dünyada baş verən prosesləri belə izah etdi:

- Neftin 1 barelinin qiyməti 70 ABŞ dollarına yaxınlaşır. Bu, gözlənilməz yüksəlişdir. Ancaq bir az araşdıranda isə bəlli olur ki, heç də belə deyil. Yəni əslində, gözlənilməz heç nə baş vermir. Əvvəla, pandemiya sanki, səngiyir kimi görünür. İkincisi, inkişaf etmiş ölkələrin iqtisadiyyatları bərpa istəyi nümayiş etdirir. Üstəlik, qış çox sərt keçir. Xüsusən də inkişaf emiş ölkələrin bəzilərində. Həmçinin, digər səbəblər də vardır. Neçə illərdir neft sənayesinə qoyulan kapital həcmi ardıcıl olaraq aşağı düşməkdədir. Bu faktı bir çoxları nəzərə almır. Pandemiyaya qədər olan dövrədək vəziyyət əgər tam bərpa olunarsa, mövcud təklif tələbatı ödəməyəcək. Neft dövrü isə hələ başa çatmayıb. Yaşıl enerji filan, əsla, yenicə qədəm qoyduğumuz bu onilliyin işi deyil. 2030-cu ilin sonunadək qlobal iqtisadiyyatda əsas güc və aparıcı mənbə rolunda yenə də neft amili çıxış edərək qalacaq. Odur ki, neftin qiyməti məsələsi hələ uzun müddət əsas müzakirə və diqqət mərkəzində olaraq saxlanılan məsələ sayılacaq.

"2030-cu ilin sonunadək qlobal iqtisadiyyatda əsas güc və aparıcı mənbə rolunda yenə də neft amili çıxış edərək qalacaq"

*Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə həyata keçirilməsinə başlanılan quruculuq işlərinə gəlincə, P.Heydərov neft gəlirlərinin artmasının prosesi sürətləndirəcəyini bildirdi:*

- Cari ilin dövlət büdcəsində neftin proqnoz qiyməti bilirsiz ki, 40 ABŞ dolları səviyyəsində götürülüb. Bu isə o deməkdir ki, ölkəmiz hazırda satdığı neftdən artıq gəlir götürür. Məlumdur ki, büdcə gəlirlərimiz bütövlükdə neftdən asılıdır. Və bu il ərzində isə 30 ilə yaxın idi ki, işğal altında olan ərazilərimiz azad edildiyindən dövlətin və hökumətin qarşısına yeni vəzifələr çıxıb. Həmin ərazilərdə bərpa və yenidənqurma işləri aparılmalıdır və artıq, bütün bunlara başlanılıb. Bunun üçün ilkin olaraq, 2 milyard manatdan çox vəsait ayrılıb. Təbii ki, bunun mənbəyini neft pulları təşkil edir. Odur ki, neftdən gələn gəlirlər nə qədər çoxluq təşkil etsə, bu, sözügedən işlərin və vəzifələrin daha genişmiqyaslı və zaman etibarilə daha tez yerinə yetirilməsinə şərait yaradacaq. Nəzərə almalıyıq ki, həmin ərazilərdə məqsədə nə qədər tez çatılsa, bu, qeyri-neft sektorumuzun inkişafına və genişlənməsinə töhfə verəcək. Ümumiyyətlə, həmişə qeyd etmişəm və yenə qeyd edirəm ki, neftdən asılılığımız müddəti bitməyincə dünya bazarlarında qiymət səviyyəsi üzümüzə sonadək "gülsə" yaxşıdır. Ancaq bundan maksimum effektli bəhrələnməyimiz tələb olunur. Çünki qeyri-neft sektorunun inkişafı uzunmüddətli məsələdir.

**Məlahət Rzayeva**

## Paşinyan taktiki səhv etdi

### Kreml Baş naziri "raket partlamadı" sözünə görə bağışlamayacaq



**Ermənistan Baş naziri Nikol Paşinyanın "niyə "İsgəndər" raketləri partlamadı? Yaxud niyə 10 faizi partladı?" fikirləri siyasi müstəvidə ciddi müzakirələrə səbəb olub.**

O, açıq-aydın Kremlə meydan oxumaq istəyir və bununla həm də Qərbə inteqrasiya yolundan dönmədiyini göstərir. Bəs, Putin Paşinyanın bu səhvini bağışlayarmı? Çətin. Çünki Rusiya dövlət başçısının səbr kasası onsuz da dolub.

Yaxşı, bəs Paşinyan niyə bilə-bilə "intihar kəndirini" boğazından asır?

**Türkiyəli professor, beynəlxalq məsələlər üzrə ekspert Yaşar Onay Paşinyanın sözügedən açıqlamasını və ehtimal olunan nəticələri "Şərq"ə şərh etdi:** "Ermənistan ordusu" deyilən bir məfhumun qalmadığını nəzərə alsaq, məncə, onlardan raketlərdən istifadə etməyi gözləmək də doğru olmaz. Əlbəttə, Paşinyanın açıqlaması ilə taktiki səhv elədi. Rusiyanın dünyanın ən öncül silah ölkələrindən biri olduğunu unutmamalıyıq.

Baş nazirin "raketlər partlamadı" bəyanatı Moskvaya dair şübhələr yarada və onun silah satışına mənfi təsir göstərə bilər.

Putinin onu bağışlamayacağı şübhəsizdir. Ermənistan hərbi-siyasi hakimiyyəti, yəqin, ABŞ və Fransadan silah almaq istədiyinə görə belə deyib. Başqa bir ehtimala görə isə rəsmi İrəvan silah bazarını qarışdırmaq və Moskvadan daha çox texnika gəlməyini təmin etmək istəyir.

Amma nə olur olsun, Kremlin reaksiyası sərt olacaq. Məncə, Paşinyan yaxın vaxtlarda devriləcək".

**Kənan**

## Rusiya fürsət gözləyir

### Vaxtı gələndə Paşinyan "nokaut"a salınacaq



**Ermənistanda vəziyyət günü-gündən qarışır. Artıq bir neçə gündür ki, aksiyalar səngimir.**

Baş nazir Nikol Paşinyan hər açılan səhərə ümidlə başlasa da, deyəsən, Günəş onun üçün çoxdan batıb. Hərbçilərin etirazlara başlaması isə son həddir. Görünür, hakimiyyətə çevriliş yolu ilə gələn Paşinyan elə də devriləcək.

Məlumat üçün bildirək ki, İrəvanın mərkəzində opera binasının yaxınlığında hakimiyyət tərəfdarları ilə müxalifətçilər arasında toqquşmalar baş verib. Qeyd olunur ki, müxalif "Vətənin xilası hərəkatı"nın tərəfdarları Azadlıq meydanına toplaşıblar.

Bu zaman oradan Baş nazir Nikol Paşinyana dəstək yürüşü edən vətəndaşlar keçib və iki qrup arasında qarşıdurma yaşanıb.

**Türkiyənin dəniz qoşunlarının hazırda təqaüddə olan admiralı, Bahçeşehir Universitetinin Dənizçilik və Qlobal Strategiyalar Mərkəzinin sədri, beynəlxalq münasibətlər üzrə ekspert Cihat Yaycı Ermənistandakı xaotik vəziyyətin nə ilə nəticələnəcəyi barədə fikirlərini "Şərq"lə bölüşdü:** "Rusiya Paşinyanın Qərbin adamı olduğunu bilir və onu bağışlamaz. Düzdür, baş nazir son vaxtlar balanslaşdırılmış siyasət yeritməyə, Rusiya ilə münasibətləri qorumağa çalışır. Lakin Putin ondan daha çox Ermənistan prezidenti Armen Sarkisyanla ünsiyyət saxlayır.

Paşinyan bundan sonra nə edirsə etsin, Moskva onun səhvini unutmayacaq və fürsət düşən kimi "nokaut" zərbəsi endiriləcək. Rusiya siyasətindən xəbərdar olanlar bunu yaxşı bilirlər".

**Kənan Novruzov**

# Ölkədəki gərginlik orduya sirayət etdi

## Ermənistan böyük bir barıt çəlləyinə bənzəyir

Ermənistan 44 günlük müharibə kabusundan ayılmayıb. Müqəddəs ruhlarımızın uyuduğu Qarabağ torpaqlarının işğaldan azad edilməsi düşmənə göz dağı verib. Məğlubiyyət acısı dadan Ermənistanın hərbi hissələrindən birində çağırışçı əsgərlərin məzuniyyətdən hərbi hissənin daimi dislokasiya bölgəsinə qayıtmaq istəməməsi ilə əlaqədar insident yaşanıb.



Fevralın 23-də hərbi qulluqçular və onların yaxınlarından ibarət bir qrup əsgərlərin daimi dislokasiya bölgəsinə qayıtmasına mane olmağa cəhd göstərib. Nəticədə bəzi əsgərlər yaranmış iğtişaşdan istifadə edərək hərbi hissənin ərazisini özbaşına tərk ediblər. Polis fərarilik etmiş əsgərlərin axtarışına başlayıb.

Baş verən hadisə onların necə qorxaq xislətə sahib olduqlarının bariz nümunəsidir. Görəsən, bu durumun kökündə hansı səbəblər dayanır?

**Sualımıza cavab tapmaq üçün ehtiyatda olan polkovnik Şair Ramaldanovla əlaqə saxladıq. O "Şərq"ə açıqlamasında bildirdi ki, Ermənistanın hərbi hissələrində belə hadisələr mütəmadi olaraq baş verir:** "Onların mətbuatında da bu barədə müzakirələr aparılır. Müharibədən öncə də, müharibə dönəmində də komandirlər, zabitlər arasında müəyyən problemlərlə əlaqədar əsgərlər etiraz edərək hərbi hissəni tərk etmişdilər. İndi məğlub olmuş erməni ordusunun psixoloji vəziyyəti çox gərgindir. Ermənistanın özündə də siyasi problemlər yaşanır.

Ölkədaxili stres hərbi hissədə xidmət edənlərə psixoloji cəhətdən təsir göstərir. Ona görə deyiblər ki, ordu cəmiyyətin güzgüsüdür. Hazırda dövlətə qarşı cəmiyyətin etirazı, mitinqləri əsgərlər arasında da narazılıq yarada bilər.

Hərbi dillə desək, mövcud durum nizam-intizamsızlığın təzahürüdür. Orada əsgərlər və əsgər-komandir münasibətləri tarıma çəkilib. Nizam-intizam aşağı olan hərbi hissələrdə belə hallar baş verir. Dövlətin daxilindəki gərginliyin hərbi hissələrdə əks-səda verməsinə təəccüblənməmək lazım deyil".

**Aygün Tahirqızı**

# Bizdə çörəyin qiyməti qalxmır, çəkisi azalır

*Bu da nəticə etibarı ilə bahalaşma deməkdir*



Buğda və un idxalının 3 illik ƏDV-dən azad edilməsi barədə Milli Məclis qərar qəbul edib. Bu əlbəttə ki, sahibkarlara kömək məqsədilə atılan bir addım idi.

Amma çox təəssüf ki, son günlər çörəyin qiymətinin enməsi gözlənildiyi halda artım müşahidə olunmaqdadır. Maraqlıdır bu ziddiyyətlər nə səbəbdən qaynaqlanır? Hətta İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən tərəfindən çörəyin pərakəndə satışı bazarında, həmçinin əhali tərəfindən daha çox istehlak edilən "dairəvi zavod çörəyi"nin satışı zamanı sui-istifadəyə və əsassız qiymət artımına yol verilməsinin vaxtında müəyyən edilməsi və qarşısının alınması məqsədi ilə mütəmadi monitorinqlər də aparılır.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, Azərbaycanda ƏDV-nin ləğvi kifayət qədər pozitiv addımdır:** "Düzdür, bundan öncə də taxıl məhsulları üçün ƏDV ləğv olunmuşdur. Amma bu dünya bazarında gedən proseslərə və Azərbaycanın daxilində qaynaqlanan səbəbləri nəzərə almır".

**İqtisadçı-ekspert qeyd edib ki, bu günləri dünyada ərzağın qiymətində artım var:** "Qonşu ölkələrdə, hansı ki, biz ərzaq məhsulları və taxıl alırdıq, orda da rüsumlar artıb. Məsələn, Rusiya fevralın 1-dən hər bir ton taxılın ölkədən çıxarılma rüsumunu 25 Avrodan 50 Avroya qədər qaldırıb. Təbii ki, bu da qiymətlərin artımına səbəb olur. Azərbaycanın daxilindən qaynaqlanan səbəb isə dizel yanacağının artmasıdır. Dizel yanacağının artması logistikanı və daşınmanı da bahalaşdırıb. Nəticə etibarı ilə də çörəyin qiymətində də müəyyən dəyişikliklərə və artımlara səbəbiyyət yaradıb. Təəssüf ki, Azərbaycanda başqa bir tendensiyada var. Bizdə bəzən çörəyin qiyməti qalxmır, amma çəkisi aşağı düşür. Bu da nəticə etibarı ilə də çörəyin qiymətinin qalxması deməkdir".

**Aynurə Pənahqızı**

## "Kamil haqqında danışmaq maraqsızdır"

"Belə şeylərdən uzaqlaşmaq fikrindəyəm. Çox danışmaq istəmirəm"



**Bir müddət əvvəl idmançı Kamil Zeynallı yazıçı Kəramət Böyükçölü təhqir edib. Buna yazarın feysbukda K.Zeynallı ilə bağlı yazdığı status səbəb olub.**

K.Böyükçölün idmançı haqqında qələmə aldığı "Kamil Zeynallı yeganə adamdır ki, yaltaqlandıqca sutkalığın artırırlar" fikrinə qarşı tərəfdən sərt cavab gəlib. Bu yaxınlarda isə K.Böyükçöl yenidən statusların birində K.Zeynallıya "ilişib".

İdmançı "Şərq"ə açıqlamasında yazarın onun adı ilə gündəmə gəlmək istədiyini söyləyib. Həmçinin Kəramətə fikir verməyin düzgün olmadığını vurğulayıb:

Kəramət Böyükçöl isə Kamilin sözləri haqqında danışmağın maraqsız məsələ olduğunu deyib: "Söyüş yazmışdı. Cavab da nə deyim ki? Toliki yaxşı oğlan adlandıran, məni də təhqir etməliydi. Başqa nə deyə bilərəm? Hazırda gərginəm. Bir müddətdir hiss edirəm ki, çox ictimailəşmişəm, sosiallaşmışam. İstəyirəm öz həyatım olsun. Ona görə belə şeylərdən uzaqlaşmaq fikrindəyəm. Çox danışmaq istəmirəm".

**Samirə**

## Zöhrə Abdullayevanın ayaqları tutulub

Əməkdar artist xəstəxanaya yerləşdirilib



**Əməkdar artist Zöhrə Abdullayevanın səhhətində problem yaranıb. Ayaqları ağrıyan müğənni neçə gündür xəstəxanaya yerləşdirilib.**

Bu haqda ifaçı Axşam.az-a açıqlamasında deyib. O bildirib ki, revmatizmdən əziyyət çəkir: "Bu gün səhər xəstəxanadan çıxdım, indi yaxşıyam. Səhv müalicələrlə məni qara günə qoydular. Professor Sahib Musayev məni xilas edib. Revmatizmdən sümüklərim ağrıyırdı. Həm də balamı istəyirəm". Aparıcı Zaur kamal isə "Həmin Zaur" proqramında Z.Abdullayeva haqda "Deyir, xəstəyəm, ayaqlarım tutulub. Əlil arabasında aparıb gətirirlər" sözlərini söyləyib.

*Qeyd edək ki, müğənni bir neçə il əvvəl oğlunu itirib.*

## Vaxtaşırı dəyişdirilməlidir

Maskadan səhv istifadə göbələk xəstəliyi yaradır



**Tez-tez dəyişdirilməyən, yaş və nəmli maskaların koronavirusa qarşı qoruculuq qabiliyyəti azalır.**

Həmçinin immun sistemi zəif olan insanlarda infeksiyalara, xüsusilə göbələk xəstəliyinə səbəb olur. Son bir ildir ki, bütün dünyada xəstəliklərdən qorunmaq istəyənlər maska taxmadan çölə çıxmırlar. Maskanın səhv istifadəsi və ya uyğun olmayan materiallarla istehsal olunan maskaların seçilməsi müxtəlif dəri problemlərinə səbəb olur. Son vaxtlar bu problemlərə göbələklər əlavə edildi.

**"Şərq" "Trthaber.com"a istinadən bildirir ki, yanlış maska istifadə etmək ağızda və onun ətrafında bakterial infeksiyalara və göbələklərə səbəb ola bilər.**

Ağızdan çıxan tər, asqırma və öskürək ifrazatları ilə maskanın islanması və nəmləndirilməsi bakteriya və göbələk böyüməsi üçün əlverişli bir mühit yaradır. Bu durum yalnız göbələyə yox, digər infeksion xəstəliklərə də yol açır.

Dəridə yarana biləcək qıcıqlanma və sızanaqların qarşısını almaq üçün maskanı düzgün istifadə etmək lazımdır. Yəni maska vaxtaşırı dəyişdirilməlidir. Maskanı düzgün istifadə etmək qədər doğru maska almaq da önəmlidir.

Sintetikdən hazırlanan keyfiyyətsiz maskalar antivirus xüsusiyyətlərinə malik deyil. Onlar tərləməyi də asanlaşdırır. Xüsusilə gözəl göründükləri üçün rəngli maskalardan istifadə məsləhət deyil.

**Yeganə Bayramova**

# Geyimləri 20 il əvvəldən məlum olub

Simpsonların Bayden və Harrislə bağlı animasiyası düz çıxdı





Gələcəkdən xəbər verən cizgi filmi - "Simpsonlar". Bu ad yəqin ki, əksəriyyətinizə tanışdır. Bəziləri bu animasiyalı filmi gələcəkdən xəbər verən subliminal mesaj kimi qəbul edir. Deyəsən, Simpson ailəsi bizim bilmədiklərimizi doğrudan da, əvvəlcədən təxmin edir... Gələcəyi xəyalən canlandıran simpsonlarla bağlı araşdırma aparmaq maraqlı idi.

Belə ki, ABŞ-ın əfsanəvi serialı Simpsonlar ("The Simpsons") dünyada baş verən bəzi hadisələri əvvəlcədən proqnozlaşdırması onu pərəstişkarlarının gözündə daha da özəlləşdirir. Daha öncə koronavirus, "Facetime", ağıllı saat, ABŞ-ın eksprezidenti Donald Trampın rəhbər seçiləcəyini bilən, hətta 1 ay öncə baş verən ABŞ Konqres Binasına basqını bilən serial bu dəfə Amerikanın yeni prezidenti Co Bayden və prezident köməkçisi Kamala Harrisin andiçmə mərasimində geyimləri ni 20 il əvvəldən bilməsi iddiasıyla gündəmə düşüb.

Andiçmə mərasimini izləyən "twitter" istifadəçiləri, mərasim sırasında Harrisin geyindiyi paltar ilə Lisa Simpson tərəfindən "The Simpson"un "Bart of the Future" bölümündə geyilən paltar arasındakı bənzərliyin anında fərqinə varıblar.

Amerikalı cizgi filmi "Simpson"un 11-ci sezonun 17-ci bölümü olan "Bart of the Future", 19 mart 2000-ci ildə ABŞ-da Fox şəbəkəsində yayımlanan Lisa Simpsonu ABŞ-ın başçısı olaraq canlandırır. Bu bölümdə Lisa boynuna ağ inci olan bənövşəyi kostyum geyinir. Diqqət etsək görərik ki, Harris də bənzər bir kombin geyinib.

Sosial şəbəkələrdə Tramp tərəfdarlarının Vaşinqtondakı Konqresə basqın edilən hadisə zamanı başında dəbilqə olan çılpaq nümayişçi ilə Simpsonlardakı "qubernator" yazısı ilə dəbilqə taxan kişinin görüntüsü yan-yana qoyulub.

Bir müddət öncə deyirdilər ki, "COVİD-19"un dünyada yayılmasını Simpsonlar əvvəlcədən bilib. Cizgi filminin 1993-cü ildə yayımlanan bir bölümündə Yaponiyada yayılan "Osaka Flu" adlı virusdan söz açılır.

Yaponiyada meyvə şirəsini işçilər qablaşdırma edərkən, onlardan biri "xahiş edirəm, müdirə qrip olduğumu demə" deyir və sonra qutunun içərisinə öskürür. Beləliklə, virus qutu ilə birlikdə ABŞ-a aparılır. Ölkədə kifayət qədər insan xəstələnir. Hə, maraqlı təsadüfdür. Lakin hər şeyə rəğmən cizgi filminə əyləncə kimi baxmaq toplumun düşüncə tərzi üçün daha sağlıqlıdır.

**Aygün Tahirqızı**



## AzTV tarixi qətlləri araşdıracaq

**Azərbaycan Televiziyasında yeni layihə start götürür.**

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Sosial media və ictimaiyyətlə əlaqələr şöbəsindən Axşam.az-a verilən məlumata görə, "Qətl planı" adlı yeni televiziya layihəsi bədii-sənədli filmlər silsiləsindən ibarətdir.

Çəkiləcək bədii-sənədli filmlərin qəhrəmanları faciəvi ölümü ilə tarixə düşmüş ictimai-siyasi, mədəniyyət və elm xadimləri olacaq.

Filmlər sözügedən şəxsiyyətlərin ölüm səhnələri ilə başlayacaq və sanki onların həyatının sonundan əvvəlinə doğru ekskurs ediləcək.

Bəzi şəxsiyyətlərin müəmmalı ölümü tarixi detektiv üslubda araşdırılacaq və müxtəlif fərziyyələr irəli sürüləcək.

Filmlərdə həm orta əsrlərdə, həm də 19, 20-ci əsrlərdə yaşamış və bu kontekstə uyğun şəxsiyyətlərin obrazları canlandırılacaq.

Bundan başqa, "Qətl planı"nda tamaşaçılar qətlə yetirilmiş Cümhuriyyət xadimləri, repressiya qurbanları və müasir dövrdə faciəvi şəkildə dünyadan köçən ziyalılar, alimlər, ictimai-siyasi xadimlər barədə ətraflı məlumatlar əldə edəcəklər.

Ssenari müəllifi İlqar Fəhmi, quruluşçu rejissoru Ramil Ağasiyev olan yeni televiziya layihəsinin quruluşçu operatoru Fahir Səmədoğludur. "Qətl Planı" fevralın 25-i saat 21:30-da yayımlanacaq.

# Daha şagirdlərimiz dərslikləri rahat anlayacaq




## Sinqapur modeli təhsilimizə yeniliklər gətirib

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutunun Sinqapurun təhsil şirkəti və nəşriyyat evi ilə uzunmüddətli əməkdaşlığı davam edir. Sinqapurun təhsil şirkəti ilə həyata keçirilən əməkdaşlıq çərçivəsində riyaziyyat fənni üzrə təhsil proqramının və dərsliklərin təkmilləşdirilməsi istiqamətində işlər aparılır.

Artıq Sinqapurun Marşel Kavendiş İnstitutu ilə birlikdə təhsil proqramının və V-IX siniflər üçün dərslik komplektlərinin təkmilləşdirilməsi prosesinə başlanılıb. Bu məqsədlə Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən ölkənin müxtəlif bölgələrindən olan fənn müəllimləri və kurikulum mütəxəssislərinin iştirakı ilə 4 fokus qrup müzakirəsi keçirilib. Müzakirələrin mövzusu hazırda istifadə edilən təhsil proqramının və onun əsasında hazırlanmış dərslik komplektlərinin tədris prosesində tətbiqindən ibarət olub.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən təhsil eksperti Kamran Əsədov qeyd edib ki, Azərbaycanda təhsil siyasətinin əsasını həm də dərslik siyasəti təşkil edir.**

Ekspert vurğulayıb ki, orta ümumtəhsil məktəblərində verilən informasiya dərsliklər vasitəsilə həyata keçirilir: "Mütəmadi olaraq ölkənin təhsil siyasətinə uyğun olaraq dərsliklərin yenilənməsi istiqamətində iş aparılır. Xüsusən nəzərə alsaq ki, təhsilin əsas məqsədlərindən biri də şəxsiyyət yetişdirməkdir. Birmənalı şəkildə əgər burda biz şəxsiyyət konsepsiyasından danışırıqsa, onun formalaşmasına təbii ki, ilk növbədə dərsliklər təsir göstərir. Qeyd edim ki, dərslik siyasətinə görə, dörd ildən bir dərsliklər tam şəkildə yenilənir və yeni üslubda çıxarılır. Bu il xüsusən ikinci və altıncı sinif dərsliklərində tamamilə dəyişikliklər həyata keçiriləcək. Digər dərsliklərdə isə elektron resurslar istiqamətində mühüm addımlar atılacaq".

**K.Əsədov əlavə edib ki, dərsliklərin məzmununda da bu illəri yenilənmə olacaq:** "Bu yeniliklər əsasən zəfərlə başa çatan Vətən müharibəsi və göstərilən qəhrəmanlıqların dərsliklərə əlavə edilməsi ilə bağlıdır. Digər tərəfdən isə dərsliklərin məzmununda ediləcək dəyişikliklər şagirdlərin yaş xüsusiyyətinə və psixologiyasına uyğunlaşdırılacaq. Eyni zamanda, dərsliklərin informasiya yükünün dövrün tələblərinə və müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər aparılacaq. Hesab edirəm ki, bu, kifayət qədər dərsliklərin şagirdlər tərəfindən daha rahat mənimsənilməsinə gətirib çıxaracaq. Bilirsiniz ki, artıq Azərbaycan təhsili müəyyən siniflər, istiqamətlər və fənlər üzrə Sinqapur modelinin tətbiqinə başlayır. Düşünürəm ki, bizim Sinqapur modeli istiqamətində atılacaq addımlarımız məhz dərsliklərin məzmununa ediləcək dəyişikliklərlə xüsusən bağlıdır. Ona görə də ikinci və altıncı sinif dərsliklərində riyaziyyat, xarici dil fənlərindən müəyyən qədər mövzularda dəyişikliklərin edilməsi, eyni zamanda həmin mövzuların müasir standartlar çərçivəsində şagirdlərin daha yaxşı anlaması istiqamətində yazılacaq. Bu kompleksləşmə və dəyişilmə kifayət qədər uğurlu olacaq. Ona görə ki, bu günləri Azərbaycan təhsilində xüsusən ibtidai sinif üçün yazılmış dərsliklərin uşaqlar tərəfindən mənimsənilməsində müəyyən problemlər var. Ancaq yeni dəyişikliklər çox ciddi şəkildə şagirdlər tərəfindən mövzuların mənimsənilməsinə imkan verəcək. Burada müəyyən qədər Sinqapur modelinin tətbiq edilməsi və o təcrübədən istifadə müsbət bir tendensiya yaradacaq. Şagirdlərimiz qeyd etdiyim fənlər üzrə, xüsusən təbiət və texniki fənlərdən daha yaxşı nəticələr əldə edə biləcəklər. Artıq Azərbaycan dünya təhsil sisteminə inteqrasiya edir. Buna görə də birmənalı şəkildə biz burda dünyanın inkişaf etmiş ölkələrinin dərslik təcrübəsindən yararlanmalıyıq".

**Aynurə Pənahqızı**




## "Bu baxışlar nələr deyir..."

Aybəniz Haşımova Zaurun uşaq fotosuna qeydlər yazıb

**Əməkdar artist Aybəniz Haşımova tanınmış aparıcı Zaur Baxşəliyevlə bağlı paylaşım edib.**

*"Şərq" qəzeti xəbər verir ki, o, aparıcının uşaqlıq fotosuna bunları əlavə edib:*

"Bu şəklin qəlbimi didim-didim elədi, Zaur. Bu baxışlar nələr deyir... İllərlə torpaq, yurd həsrəti, məhv olan gündəlik, xatirələr, qaçqınlığın zülmü, tənələri var. Bir gün körpə baxışların böyüyüb bütün dərdlərə sinə gəlib. Xalqına yararlı vətəndaşa çevrilmisən. Nə yaxşı ki, doğulmusan. Bunu tək mən yox, imdadına çatdığın insanlar deyir. Var ol, çox yaşa, Vətəninə bənzəyən oğul!".

**Samirə**

## Çəmənli kəndində qan töküldü

Ağdamda qardaş qardaşı bıçaqlayıb



**Ağdamda qardaş qardaşı bıçaqlayıb.**

APA-nın yerli bürosunun xəbərinə görə, hadisə rayonun Çəmənli kəndində qeydə alınıb.

Kənd sakini, 1971-ci il təvəllüdlü Həsənov Qalib Balış oğlu aldığı bıçaq yarası ilə Ağdam Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb.

İlkin dindirmə zamanı yaralı ailə münaqişəsi zəminində qardaşı tərəfindən bıçaqlandığını deyib.

## Əməliyyat keçirilib

Bakıda keçmiş məhkum avtomatla yaxalandı



**Bakı şəhər Baş Polis İdarəsi Cinayət Axtarış İdarəsi və Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi istiqamətində birgə əməliyyat tədbiri həyata keçirilib.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Şərq"-ə verilən məlumata görə, əvvəllər dəfələrlə məhkum olunmuş Çingiz Quliyevin üzərində qanunsuz olaraq odlu silah-sursat gəzdirməsi barədə polis əməkdaşlarına əməliyyat məlumatı daxil olub.

Keçirilən təxirəsalınmaz tədbir nəticəsində həmin şəxs qısa zamanda Sabunçu rayonu ərazisində saxlanılıb. Onun üzərinə baxış keçirilərkən 1 ədəd "Kalaşnikov" markalı avtomat silah, 2 ədəd sandıqça və 30 ədəd patron aşkar olunaraq götürülüb.

Çingiz Quliyev silah-sursatın ona məxsus olduğunu, bir müddət əvvəl tapmasına baxmayaraq polis əməkdaşlarına təhvil vermədiyini bildirib.

Faktla bağlı Sabunçu RPİ-nin İstintaq Şöbəsində Çingiz Quliyev barəsində cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Dünya ölkələrinin intihar reytinqi açıqlanıb

İntiharların sayına görə statistik məlumatlara əsasən Dünya Səhiyyə Təşkilatı dünya ölkələrinin statistikasını hazırlayır. Bir neçə müddətdən bir bu siyahı yenilənir.



## Türkiyə 118-ci yerdə, Azərbaycan 176-cı yerdədir

Medicina.az rəsmi araşdırmalara görə ÜST-ün İntihar hadisəsi çox olan ölkələrin siyahısını təqdim edir.

Statistika il ərzində hər 100 min nəfər əhaliyə düşən intihardan ölüm sayına əsasən hesablanır.

Bununla da həmin ölkə və regionda əhalinin ümumi sosial psixoloji vəziyyəti aydın olur.

Hazırda ÜST intiharları dünya üçün qlobal problem kimi qəbul edir.

Son 50 ildə intihar sayı bütün dünyada 60% artıb. Bir çox ölkələrdə, məsələn Rusiyada özünə qəsddən ölüm 15-45 yaş arası insanlar arasında ölüm səbəbləri içərisində 3-cü yeri tutur.

2018-ci il statistikasına görə dünyada ən çox intihar hadisələri baş verən ölkələrin ilk onluğu belədir:

***1. Qrenlandiya - 82%***
***2. Qayana - Cənubi Afrika-da - 30%***
***3. Lesoto - 28%***
***4. Rusiya - 26%***
***5. Litva - 25%***
***6. Surinam - 23%***
***7. Kot-d-İvuar - 23%***
***8. Qazaxıstan - 22%***
***9. Qvineya - 22%***
***10. Belarus - 21%***

İnsanlar arasında yayılmış bir fikrə görə yaponlar hamıdan daha çox intihara meyillidir. Göründüyü kimi Yaponiya birinci yerdə yox, 31-ci yerdədir. Bizə yaxın Türkiyə 118-ci yerdə, Azərbaycan 176-cı yerdədir. Azərbaycanda ümumi əhalinin 2,5 faizi intiharlardan vəfat edir.

Nəzərə alsaq ki, bu statistika pandemiyadan əvvəl hazırlanıb.

*Təəssüflə hesab edirik ki, növbəti 4 ilin hesabatında Azərbaycan irəliyəyəcək. Çünki son 2 ildə ölkədə intihar hadisələri çoxalıb.*

# Koronavirus 2022-ci ildə bitəcək, sonra isə...



## ÜST rəsmisi ciddi açıqlama və proqnozlar verib

(Əvvəli səh: 16-da)

Medicina.az ÜST rəsmisinin açıqlamasını təqdim edir: " Virusun mutasiyası və yeni ştamları aramızda olacaq, artacaq. Amma onlar vaksinlərə qarşı güclü olmayacaq. Yenidən sıfırdan hər mutasiyaya qarşı vaksin yaratmağa gərək yoxdur.

Sadəcə mövcud vaksinlərin üzərində işləyib, bir qədər dəyişib, mutasiyarala qarşı sınamaq olar. Ciddi problem o vaxt gözlənilir ki, vaksinasiya kütləvi olacaq, hər ölkədə 50% əhali peyvənd ediləcək və bu vaksin almış insanlarla peyvənd olunmayan insanlar bir arada, bir yerdə qaynayıb-qarışacaq".

**Rusiyalı virusoloq professor Anatoliy Altşteyn ÜST məmurunun bu açıqlamasına elmi olaraq açıqlama gətirib.**

"Birinci proqnoz -2022-ci ildə pandemiyanın bitəcəyinə mən də inanmaq istərdim, hesab edirəm ki, doğru çıxacaq. Amma bu o demək deyil ki, kovidlə xəstələnmə bir daha olmayacaq. Olacaq, lakin belə güclü yox. Bizim əsas qayğımız, işimiz vaksinləşmə ilə bağlıdır. Hələ 2 il də qorunma, maska, sosial məsafə qalmalıdır. Ümumiyyətlə, biz Asiya və Yaponiyadakı kimi kütlə olan yerdə maskada gəzməyə artıq vərdiş etməliyik. Bu qayda onlarda çoxdan var, xüsusən qış aylarında.

Vaksinləşmədə isə problem illik doza istehsalıdır. Məsələn, bizim Sputnik ildə 10 milyon doz istehsal ediləcək. Bu Rusiya və bu vaksini alan digər ölkələri təmin etmək üçün azdır.

Vaksinli insanla vaksinsizlərin bir arada olması hansı təhlükələr yaradacaq? İş ondadır ki, peyvəndlənmiş insanlar çox arxayın olacaq, bəzi hallarda qorunmayacaq, psixoloji olaraq əmin olacaqlar.

Əgər mən koronavirus peyvəndi olmuşamsa, daha mənə qorxu yoxdur, 100 faiz təhlükəsizlik zəmanəti almışam kimi fikirlər insanları çaşdıracaq. Peyvənd olunmuş şəxs virusa yoluxacaq, amma onun orqanizmində virus çətin çoxalıb uzun müddət yaşasın. Lakin bu adamlar gizli daşıyıcı, yoluxdurucu ola bilərlər. Bu da peyvənd olunmamış digər insanlar, xüsusilə uşaqlar, gənclər, bəzi qrup xəstələr üçün təhlükəlidir.

Peyvənd olunmuş şəxs özündən nə qədər arxayın olsa da, yenə də digər insanları düşünməlidir, yenə də maska taxmalıdır. Arxayınlıq çox problemlərə yol aça bilər.

# Süni intellekt bazarının dəyəri 500 milyard dollara çatacaq



**IDC analitik şirkətinin məlumatına görə, qlobal süni intellekt (Sİ) bazarı sürətlə böyüyərək, önümüzdəki illərdə 500 milyard dollara çatacaq. IDC analitikləri davam edən pandemiya və iqtisadi çətinliklərə baxmayaraq Sİ bazarında güclü böyümə gözləyirlər.**

"Şərq" ted.az-a istinadən bildirir ki, ümumilikdə keçən ilin sonunda qlobal Sİ bazarının həcmi təxminən 281,4 milyard dollar təşkil edib.

Bu il böyümə 16,4% proqnozlaşdırılır. Bu gözləntilər özünü doğruldarsa, xərclər 327,5 milyard dollara çatacaq.

Beş il ərzində təyin olunmuş ərazidə CAGR göstəricisi (mürəkkəb illik böyümə sürəti) 17,5% səviyyəsində olacaq. Nəticədə, 2024-cü ildə bazar, 554,3 milyard dollar həcminə çatan 500 milyard dollarlıq simvolik bir mərhələni aşacaq.




# "Bakcell"dən onlayn iş və təhsil üçün internet paketi

## Yeni internet paketi "Skype", "Zoom", "MS Teams" və "Go to Meeting" platformalarında istifadə oluna bilər

**Hazırki dövrdə onlayn iş və təhsilin sosial əhəmiyyətini və abunəçilərin distant ünsiyyətə artan tələbatını nəzərə alaraq, Bakcell onlayn iş və təhsil üçün nəzərdə tutulmuş xüsusi internet paketini istifadəyə verib.**

Yeni "Onlayn iş və təhsil" internet paketi sayəsində istifadəçilər iş görüşlərinə və onlayn dərslərə istənilən yerdən və istənilən mobil cihazdan asanlıqla qoşula biləcəklər. Ayda cəmi 10 manata Bakcell abunəçiləri 40 GB həcmində internet trafiki əldə edəcək.

Yeni internet paketi "Skype", "Zoom", "MS Teams" və "Go to Meeting" kimi onlayn platformalarda istifadə oluna bilər. Beləliklə, onlayn təhsil alan və evdən işləyən internet istifadəçiləri "Bakcell"in ən üstün müştəri təcrübəsi ilə yanaşı Azərbaycanın ən üstün mobil şəbəkəsindən yararlanacaqlar.

"Online iş və təhsil" internet paketi barədə daha ətraflı məlumatla https://www.bakcell.com/az/online-edu-work səhifəsində tanış olmaq olar.

*Qeyd edək ki, Covid-19 pandemiyası zamanı Bakcell şirkəti müəllimlər üçün xüsusi tarif təqdim etməklə ölkədə onlayn tədris prosesinin keyfiyyətinin artırılmasına öz töhfəsini verib. Belə ki, xüsusi təklif çərçivəsində minlərlə müəllim ayda cəmi 5 AZN ödəməklə pulsuz mobil nömrə, müəllimlər arasında pulsuz zəng imkanı, 1 GB internet və ölkədaxili zənglər üçün 100 dəqiqə əldə edir.*

*Bakcell şirkəti məhsul və xidmətlərinin keyfiyyətini müntəzəm qaydada artırmaqla abunəçilərinə daha yaxşı müştəri təcrübəsi təqdim etməyə davam edəcək.*



# İnstaqramda ən çox istifadə olunan smaylik gülən emojidir

**İnstaqram sosial şəbəkəsində ən çox istifadə olunan smaylik gülən emojidir.**

"Şərq" ted.az-a istinadən bildirir ki, bu haqda Koreya Qabaqcıl Elm və Texnologiya İnstitutunda Techno MBA (Marketing) üzrə təhsil alan Səyyarə Hüseynova Təhsil Nazirliyinin media iştirakçıları üçün keçirdiyi təlimdə öz təqdimatında məlumat verib.

O bildirib ki, İnstaqramda gündəlik 500 milyon aktiv istifadəçi var: "İnstaqram izləyicisi Feysbuk izləyicisindən 58 qat daha çox aktivdir. İstifadəçilərin 60%-i hər gün İnstaqrama daxil olur. İnstaqram istifadəçilərinin 69%-i 35 yaşından aşağıdır. Sözügedən şəbəkə istifadəçiləri hər gün 4 milyarddan çox mesaj bəyənir. İstifadəçilər orta hesabla 100 milyondan çox şəkil yükləyirlər. 38% istifadəçi gün ərzində bir neçə dəfə şəbəkəyə daxil olur".

# Qanda kalsiumun tarazlığı vacibdir

## Bu, sinir və əzələ sisteminin sıradan çıxmasına şərait yarada bilər



Sümük sağlamlığı insan üçün olduqca əhəmiyyətlidir. Sümüklərin zəifləməsinə səbəb olan kalsium çatışmazlığı sinir və əzələ sisteminin də sıradan çıxmasına şərait yarada bilər. Bədən üçün çox vacib olan kalsium tarazlığı paratiroit ilə tənzimlənir. Qanda kalsium balansının pozulması böyrək daşı, mədə xorası, qəbizlik, ürək bulanması, qan təzyiqinin artması və unutqanlıq kimi bir çox fərqli simptomla ortaya çıxa bilər.

### Bəzən insanlarda unutqanlığın səbəbi də yüksək kalsium ola bilər

*"Şərq" türk mediasına istinadən həkim-professor Ömer Uslukayanın paratiroid xəstəlikləri və müalicə üsulları haqqında məlumatı təqdim edir:* "Qanda kalsium balansının pozulması çox vaxt paratiroid hormonunun işləməməsi ilə əlaqədardır. Paratiroidin çox işlədiyi hallarda qanda kalsium dəyəri arta bilər. Bu hormonun həddindən artıq ifrazı sümüklərdə lazım olan kalsiumun qan dövranında həll olunmasına imkan verir. Ona görə də sümük sağlamlığı üçün normada olan kalsium və paratiroid hormonunun tarazlığı vacibdir". Həkimin sözlərinə görə, bəzən insanlarda unutqanlığın səbəbi yüksək kalsium ola bilər: "Qanda kalsium səviyyəsinin artması beyin də daxil olmaqla bütün sinir sisteminə təsir edə bilər. Dərk etmə və nitq qabiliyyətinin zəifləməsi, unutqanlıq, depressiya və əzələ zəifliyi kimi şikayətlər olur. Kalsium çox olduğu kimi, az kalsium da problemlərə yol açır. Bu baxımdan tarazlığın qorunması olduqca vacibdir. Bunun üçün ilk növbədə düzgün qidalanma şərtdir. Sümük yeyilməsinə səbəb kalsium azlığıdır, kalsium tarazlığı üçün isə tərkibində D vitamini olan qidaların qəbulu lazımdır. Balıq, yumurta kimi məhsullara üstünlük vermək olar. Bundan əlavə açıq, xüsusilə günəşli havada gəzmək mühümdür".

**Yeganə Bayramova**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 394



## Koronavirus 2022-ci ildə bitəcək, sonra isə...

ÜST rəsmisi ciddi açıqlama və proqnozlar verib

**Dünya Səhiyyə Təşkilatının regional direktoru, virusoloq, doktor Hans Klyuq bir neçə ciddi açıqlama və proqnozlar verib.**

O, pandemiya ilə bağlı optimistik xəbər verib: koronavirus ocaqları 2022-ci ildə səngiyib bitəcək. Artıq 2022-ci ilin əvvəlində dünya əvvəlki həyata qayıtmağa başlayacaq.

İndidən arxayın olub rahatlanmaq tezdir. Çünki 2021-ci il də virusla mübarizə ili olacaq. Lakin bu il keçən ilə nisbətən onu idarə edib səngitmək daha asan olacaq. Ən pis ssenarilən arxada qaldı.

*(Davamı səh: 15-də)*

## Ruslar yenə Türkiyəni seçdi

İtaliya, İspaniya, hətta Misir də arxada qaldı



**"Yandeks.Səyahət" səyahətlərin planlanması xidməti Rusiya turistlərinin ən çox səyahət etmək istədikləri ölkələrin ilk beşliyini açıqlayıb.**

Rusların Türkiyə sevgisi İtaliya, İspaniya, hətta Misiri də arxada qoyub. Rus turistlərin 60 faizi məhz Türkiyəyə səfər etmək istədiklərini bildiriblər. Sözügedən xidmət səyahət arzusunda olanlar arasında sorğu keçirib və sorğunun nəticələrinə görə, rus turistlərin daha çox üstünlük verdiyi 5 istiqamət müəyyənləşib. Beşlikdə ilk yeri isə Türkiyə tutub. Rusiyalı turistlərin 45 faizi pandemiya ilə bağlı vəziyyət yumşalarsa, səyahətə çıxmaq barədə düşündüklərini, 9 faiz isə pandemiyanı artıq vecinə almadan, nəyin bahasına olursa-olsun bu yay səyahətə çıxmaqda qərarlı olduqlarını bildiriblər. Səyahət xidməti sorğunun nəticələrini rusiyalıların səyahətə çıxmaq istəklərinin kütləvi etirafı hesab edir.

**Məlahət**

## 22 yaşlı aktrisa üzünə durur

Jerar Depardye təcavüzdə günahlandırıldı



**Məşhur aktyor Jerar Depardye Fransa hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən zorlama və cinsi təcavüzdə ittiham olunur.**

Sputik Azərbaycan xarici mətbuata istinadən xəbər verir ki, adının açıqlanmasını istəməyən 22 yaşlı aktrisa məhkəməyə müraciət edərək yaxından tanıdığı Jerar Depardyenin 2018-ci ilin yayında ona təcavüz etdiyini bildirib.

Aktyor isə ona qarşı irəli sürülən ittihamları qəti şəkildə rədd edərək günahsız olduğunu açıqlayıb.

## Ledi Qaqa dəyişiklik edib

35 yaşlı ifaçı Roma şəhərində yeni stildə görüntülənib



**Albomları və "A Star Is Born" filmindəki aktrisalıq qabiliyyəti ilə müzakirələrə səbəb olan Ledi Qaqa xarici görünüşündə dəyişiklik edib.**

35 yaşlı Qaqa Roma şəhərində yeni stildə görüntülənib. Tanınmamaq üçün maska və qara gün eynəyindən istifadə edən ifaçının bu cəhdi boşa çıxıb. Hazırda film çəkilişlərində iştirak edən Ledi geyim tərzini və saç rəngini dəyişib. O, bunu rol aldığı ekran işi üçün edib.

*Qeyd edək ki, Qaqa "Gucci" adlı ekran əsərində çəkilir.*



# 9 aylığında məscidin qapısına atılmışdı

Vətənə Harvard Universitetinin məzunu olaraq qayıtdı



**9 aylığında bir məscidin qapısına atıldı. 37 il sonra doğma Vətəninə Harvard Universitetinin məzunu olaraq qayıtdı.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Ədirnə şəhər bələdiyyə başqanı Rəcəb Gürkan tvitterdə bir körpənin uğur hekayəsini paylaşıb. 37 yaşlı Ömər Duman Ədirnə bələdiyyəsini ziyarət edib. Bu, 9 aylıq körpə ikən Ədirnədə Səlimiyə məscidinin önünə atılmış Ömər Dumandır. Ömər Duman ağır həyat yolundan danışıb. Onun həyat hekayəsi belədir: 9 aylıq körpə Səlimiyə məscidinin önündə tapıldıqdan sonra Rizədə uşaq evinə (yetişdirmə yurdu) təhvil verilib. Uşaqlığı yetişdirmə yurdunda keçib. Bütün çətinliklərə baxmayaraq Ömər həyatda uğur qazana bilib. Əvvəlcə Türkiyədə universitetə qəbul olunub. Sonra isə Harvard Universitetində təhsilini davam etdirib, "master-klass" səviyyəsi qazanıb. Ömər Duman hazırda Kanadada yaşayır. Ailəlidir, 4 övladı var. Ən böyük həsrəti Ədirnəni idi. Ona da qovuşdu. Ədirnə bələdiyyə başkanı Ömər Dumanı hər zaman doğma şəhərində qarşılamaqdan məmnun olduğunu deyib və "qapımız da, könlümüz də sənə açıqdır" söyləyib. Ömər Duman Ədirnə bələdiyyəsindəki görüşdən fotonu sosial hesabında paylaşıb.

**Məlahət**

## İnsan üzlü köpəkbalığı

Görənləri şoka saldı






**İndoneziyada Abdullah Nuren adlı bir balıqçı, insan simasında körpə köpəkbalığı şəkillərini paylaşıb. "Şərq" qəzeti "Daily Mail"ə istinadən bildirir ki, hadisə İndoneziyanın "Rote Ndao" adasında baş verib.**

Ov edərkən insan üzlü bir köpəkbalığı ilə qarşılaşan balıqçı Abdullah Nuren mutasiyaya uğramış körpə balığın hələ doğulmadığını və anasının qarnından çıxdığını deyib.

Belə ki, köpək balığı üç balaya hamilə olub. Nuren əvvəlcə bu balalardan birinin fərqli xüsusiyyətə sahib olduğunu bilməyib. Mutasiyaya uğrayan balanın burnunun altında iki böyük göz gördəndə şok olduğunu vurğulayıb.

*Hadisə barədə danışan Nuren torunda əvvəlcə bir ana köpəkbalığı tutduğunu diqqətə çatdırıb:* "Ertəsi gün ana köpəkbalığının mədəsindən üç bala çıxdı. İkisi də anaları kimi adi köpəkbalığı idi, ancaq bu bala insan üzünə bənzəyirdi. Sonra balıqların mutasiya olunduğunu anladım. İnanıram ki, bu balıq mənə şans gətirəcək".

Olayı video ilə paylaşan Nurenin körpə köpək balığını bir karton qutuya yerləşdirərək lentə aldığı görünür.

**Aygün Tahirqızı**

## "16 yaşımda məktəbdən ayrıldım" Keyt Uinslet səmimi etiraflar edib



**"Titanic" filminin ulduzu Keyt Uinslet verdiyi açıqlama ilə gündəmə gəlib.**

"Empire" jurnalına müsahibə verən aktrisa şəxsi həyatı ilə bağlı səmimi etiraflar edib. Təhsilin insan həyatında əhəmiyyətli rol oynadığını deyən Keyt bunları söyləyib:

"Özümü çox şanslı hiss edirəm. 16 yaşımda məktəbdən ayrılmaq məcburiyyətində qaldım. Təhsilimi davam etdirə bilmədim. Lakin buna baxmayaraq mən danışanda hansı sahə üzrə ali təhsil aldığımı soruşurlar. Buna görə də özümü bu həyatda istisna insanlardan hesab edirəm".